QARABAĞ AZƏRBAYCANDIR!

**Müasir Azərbaycan Ulu Öndərin həyat amalının təntənəsidir**

4





Səs

№ 003 (6686) 10 yanvar 2023-cü il. Qiymət 60 qəpik

# 2022-ci il idman tarixinə yeni qələbə və uğurlar ili kimi həkk oldu




**İlham Əliyev: "İdmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq"**

2

# Separatçılar başlarını niyə və necə itiriblər?

*Laçın yolundakı proseslər və Azərbaycanın növbəti qələbə əzmi!*



10

## Tariximizin 32 illik "Səs"i



15

## "Qərbi Azərbaycan mənim üçün Vətən deməkdir"



11

## Kommunal sahələrdə əhaliyə göstərilən xidmətlərlə bağlı vəziyyət necədir?



9

## Tehran rejimi onlarla jurnalisti həbs edib




14

## Yalan maşını - "Le Figaro"




9

# 2022-ci il idman tarixinə yeni qələbə və uğurlar ili kimi həkk oldu

## İlham Əliyev: "İdmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq"




### Rəsmi xronika

Prezident İlham Əliyev İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 645-VIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.



**Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz yüksəliş dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslırinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür. Ölkə rəhbərliyi tərəfindən idmanın kütləviliyinin təminində böyük ugurlar əldə olunub. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Ölkəmizdə gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanıldığından bu sahənin inkişafı istiqamətində mühüm qərarlar verilir və sənədlər imzalanır.**

Bu gün Azərbaycanda idman hərəkatı öz inkişaf dövrünü yaşayır. Dövlətin idmana olan qayğısı baxımından Azərbaycan dünyada öndə gedən ölkələr sırasındadır Son illərdə olduğu kimi yola saldığımız 2021-ci il də idman sahəsindg böyük uğurlarla yadda qaldı. Yanvarın 9-da keçirilən 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev çıxışında hər il olduğu kimi, keçən ilin də Azərbaycan idmanı üçün uğurlu il olduğunu bildirmişdir. "Bütövlükdə ölkə miqyasında görülmüş işlərə yüksək qiymət verməк olar", - deyən Prezident bildirib ki, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanın dinamik inkişafı təmin olundu: "İdman da həyatımızın tərkib hissəsi olduğu üçün əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir. Bunu həm idmançılarımızın qələbələri göstərir, eyni zamanda, ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir".

### İdmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanmışlar, onlardan 300-ə yaxını qızıl medaldır

Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini artırıb. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti nəticəsində idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir. "İdmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanmışlar, onlardan 300-ə yaxını qızıl medaldır", - deyən dövlət başçısı bunun doğrudan da böyük nailiyyət olduğunu bildirib: "Çünki dünyada idman




sahəsində rəqabət artır, yeni idman ölkələri meydana çıxır. Ona görə hər il bu yüksək nəticələri göstərmək, öz gücünü təsdiqləmək asan məsələ deyil".

Respublikamızın artan potensialı nəticəsində son illər Azərbaycanda beynəlxalq miqyaslı tədbirlər, o cümlədən bir çox idman növləri üzrə dünya və Avropa çempionatları, dünya kuboku və Qran-Pri yarışları keçirilmişdir. Belə ki, Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına, eləcə də Avropa, dünya çempionatlarına yüksək səviyyədə ev sahibliyi etmiş Azərbaycanda belə yarışların keçirilməsi onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır.

Dövlət başçısı daha sonra qeyd edib ki, Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil ediblər: "Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu, bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir. Çünki İslam Həmrəyliyi Oyunlarında rəqabət çox böyük idi, demək olar ki, bütün komandalar əsas heyətlə təmsil olunurdu. Gərgin mübarizə zamanı 4-cü yeri tutmaq əlbəttə ki, böyük qələbədir, böyük nailiyyətimizdir.

Bu Oyunları biz izləmişik və əfsuslar olsun yenə də qeyd etməli oluruq ki, hakim ədalətsizliyi bizi bir neçə medaldan məhrum etmişdir. Buna baxmayaraq, bu böyük nailiyyət, - mən bunu qələbə hesab edirəm, - bir daha Azərbaycan idmanının gücünü təsdiqləyir və göstərir ki, Azərbaycanda idmanın inkişafı ardıcıl xarakter daşıyır. Çünki 5 il əvvəl Bakıda iştirak etmiş idmançılarımızın bir çoxu Konyada İslam Həmrəyliyi Oyunlarında iştirak etmirdi. Beləliklə, nəsillər dəyişir, ancaq uğurlarımız sabit qalır və bu, bir önəmli məsələyə diqqətimizi çəkir - yəni, o mənada ki, burada da biz inkişaf və uğur görürük, nəsillər dəyişdikcə görkəmli idmançılarımızın təcrübəsi elə bil ki, gənc idmançılara təhvil verilir. Yəni, Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar və bu, daimi proses olmalıdır.

Gənc idmançıların hazırlanması əlbəttə ki, mütəşəkkil qaydada təmin edilməlidir. Son vaxtlar bu sahədə daha məqsədyönlü fəaliyyət də göz önündədir, xüsusilə seleksiya işləri. Bölgələrdə keçirilmiş çoxsaylı tədbirlər gəncləri, uşaqları, yeniyetmələri idman bölmələrinə cəlb etmək üçün daha böyük imkanlar yaradacaq".

### Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmişlər

İdman ölkəsi kimi tanınan ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb.

Ardı Səh. 3

# 2022-ci il idman tarixinə yeni qələbə və uğurlar ili kimi həkk oldu

## İlham Əliyev: "İdmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq"




**Əvvəli Səh.2**

Birinci Avropa Oyunlarının təntənəli açılış və bağlanış mərasimləri, eləcə də, atletika yarışları, məhz bu stadionda təşkil olunub. Bakı Tennis Akademiyası da Azərbaycanda




bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bakı Tennis Akademiyasının ərazisində idman hovuzu və məşq zalı da istifadəyə verilib. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etdiklərini bildirən Cənab Prezident beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd edib: "Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu, bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir. Çünki İslam Həmrəyliyi Oyunlarında rəqabət çox böyük idi, demək olar ki, bütün komandalar əsas heyətlə təmsil olunurdu. Gərgin mübarizə zamanı 4-cü yeri tutmaq əlbəttə ki, böyük qələbədir, böyük nailiyyətimizdir". Bu əldə olunan qələbələr Azərbaycan idmanının gücünü təsdiqləyir.

### Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar

Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. "Beləliklə, nəsillər dəyişir, ancaq uğurlarımız sabit qalır və bu, bir önəmli məsələyə diqqətimizi çəkir - yəni, o mənada ki, burada da biz inkişaf və uğur görürük, nəsillər dəyişdikcə görkəmli idmançılarımızın təcrübəsi elə bil ki, gənc idmançılara təhvil verilir. Yəni, Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar və bu, daimi proses olmalıdır" - deyə Prezident bildirib.

Cənab Prezident çıxışında görkəmli idmançılarımızın uğurlarının bütün gənc idmançılar üçün örnək olmağını diqqətə çatdırıb: "Çünki bizim idmançılarımız həyatda, cəmiyyətdə, məişətdə də özlərini ləyaqətlə aparırlar və idman arenalarında qazanılmış uğurları adi həyatda da öz hərəkətləri




ilə təsdiqləyirlər. Beləliklə, gənclərdə, uşaqlarda idmanla məşğul olmaq, görkəmli idmançılara oxşamaq həvəsi daha da böyük olur. Əlbəttə ki, idmana dövlət dəstəyi - bunun da xüsusi əhəmiyyəti var. Biz bunu Azərbaycanın timsalında görmüşük ki, idmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq".

### "2023-cü ildə ölkəmizdə həm dünya, həm Avropa çempionatları keçiriləcək"

Cənab Prezident çıxışında uğurlarımızla yanaşı, yeni ildə keçiriləcək yarışlara da nəzər salıb. 2023-cü ildə ölkəmizdə həm dünya, həm Avropa çempionatları keçiriləcək.




Yay Olimpiya Oyunlarına hazırlığın son mərhələsindəyik, - deyən Prezident bildirib ki, 2023-cü il bir çox parametrlər üzrə həlledici il olacaqdır: "Ona görə bizim bütün idman ictimaiyyətimiz, Nazirlik, Milli Olimpiya Komitəsi, federasiyalar, klublar, idman cəmiyyətləri, əlbəttə, əsas istiqaməti bunda görməlidirlər ki, Azərbaycan Yay Olimpiya Oyunlarında da öz gücünü təsdiqləsin".

Azərbaycan xalqı qalib xalqdır və bu ifadəni işlədərkən böyük bir həqiqətin arxasında dayandığını görürük. Azərbaycan tarixi ədaləti bərpa etdi. İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızda da idmanın inkişafına diqqət ayrılacaqdır. Bildiyimiz kimi, ötən il azad edilmiş ərazilərdə keçən il bir neçə beynəlxalq idman yarışı keçirilmişdir. Şuşada beynəlxalq şahmat yarışı, Suqovuşanda, Suqovuşan gölündə beynəlxalq avarçəkmə yarışı, Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilmişdir. "Mən bunu çox yüksək qiymətləndirirəm və bu il də bu işlər davam




etdirilməlidir" - deyə bildirən Prezident qeyd edib ki, azad edilmiş şəhərlərin hər birində idman qurğularının yaradılması nəzərdə tutulur: "Bütün şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılacaq və idman obyektlərinin yaradılması nəzərdə tutulur.

Bildirməliyəm ki, Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda, onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq. Bununla bərabər olaraq, keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq, yenə də Qarabağ torpağında yaratmışdıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində - Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir. Azad edil-




miş bütün digər şəhərlərdə idman obyektlərinin yaradılması planlarımızdadır. Əlbəttə, biz, ilk növbədə, keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarmalıyıq və bu istiqamətdə işlər gedir. İlk növbədə, məktəblər, xəstəxanalar, infrastruktur yaradılmalıdır. Ancaq idman obyektləri də əlbəttə ki, yaddan çıxmır və çıxmayacaq. Bütün bunları qeyd edərək bir daha demək istəyirəm ki, Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib və bütövlükdə ölkəmizin dünya arenasında mövqeyi ildən-ilə möhkəmlənir".

***Nəzakət ƏLƏDDİNQIZI***




## Birinci vitse-prezident Mehriban Əliyeva Milad bayramı münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Milad bayramı münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Milad bayramı münasibətilə Azərbaycanın xristian icmasını səmimi-qəlbdən təbrik edir, bütün həmvətənlərimizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!".

# Müasir Azərbaycan Ulu Öndərin həyat amalının təntənəsidir

**2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Məhz Prezident İlham Əliyev 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamı ulu öndərin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".**



## QÜDRƏTLİ, QALİB AZƏRBAYCANIN MEMARI - HEYDƏR ƏLİYEV

Artıq bir neçə gündür yeni - 2023-cü ilin - "Heydər Əliyev ilinin sevincini yaşayırıq. Və 2023-cü ilin də əvvəlki illər kimi, uğurlu, qələbə zəfərli il olacağına xalqımız böyük ümidlə inanır. Çünki 2023-cü il ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür və bu ili xalqımız fərqli ovqatla, qalib kimi qarşılayır. Çünki bugünkü günün memarı olan Ümummilli Liderin arzuları artıq həyata keçirilib. Bütün fəaliyyətini Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr edən ulu öndərin yarımçıq qalmış ideyalarını dahi şəxsiyyətin siyasi məktəbinin ən layiqli davamçısı Prezident İlham Əliyev reallaşdırdı. Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Müzəffər Azərbaycan Ordusu rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gün ərzində xalqımızın 30 illik yurd həsrətinə birdəfəlik son qoydu, Ermənistanı diz çökdürdü. Və 2020-ci ilin noyabrın 10-da Ermənistan dövləti kapitulyasiya oldu. Azərbaycan qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasi strategiyası sayəsində öz gücünə torpaqlarımızı işğaldan azad etdi. Bununla da ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Biz doğma Qarabağımıza qovuşduq!

## 1969-CU İL İYULUN 14-DƏN BAŞLANAN BÖYÜK QURUCULUQ VƏ YÜKSƏLİŞ MƏRHƏLƏSİ

Bəli, tarix ən ədalətli hakimdir və bu gün Zəfərə gedən yolun əsasında tarixi şəxsiyyət, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır. Bu 1969-cu il iyulun 14-ü Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir. Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Heydər Əliyevin respublikanın ali vəzifəsinə - Azərbaycan Kommunist Partiyasının Birinci Katibi seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün, sözün əsl mənasında, dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu və xalqın etimadını Ondan başqa heç kim doğrulda bilməzdi. Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. 1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi qısa müddətdə Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Azərbaycanda Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılmış, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görüldü. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə sənayedə 581 adda yeni tipli maşın, avadanlıq, aparat, cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və i.a. yaradılmışdır. 1970-ci ildən başlayaraq Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxmışdı. Respublikada kənd təsərrüfatı və onun xam malını emal edən sahələr böyük sürətlə inkişaf edirdi. 1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdı. Bütün bunlar inkişafın ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin sürətlə artmasına səbəb oldu. Eyni zamanda, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin qətiyyəti, siyasi iradəsi hesabına gerçəkləşdi. Möhtəşəm fəaliyyəti ilə şöhrətlənən dahi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Bütün bunlar isə 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü idi. Çünki Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi ilə ölkəmizdə görünməmiş canlanma və inkişaf, nəhəng tikinti-quruculuq işləri başlandı. Bakıda o dövr üçün nadir müəssisələr - məişət kondisionerləri, dərin dəniz özülləri zavodları, paytaxtımıza bu gün də yaraşıq verən ictimai binalar - "Gülüstan" sarayı, Heydər Əliyev Sarayı tikildi. Həmçinin Yeni Əhmədli, Günəşli kimi nəhəng yaşayış massivləri salındı. Kənd təsərrüfatı məhsulları istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı yaxşılaşdı, bir çox sosial layihələr həyata keçirildi. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər haqlı olaraq intibah dövrü kimi səciyyələndirilir. Respublikanın əvvəlki rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev bölgələrə tez-tez səfərlər edir, insanlarla bilavasitə ünsiyyət qurur, onların problemləri və qayğıları ilə şəxsən maraqlanırdı. Onun alimlər, yazıçılar, mədəniyyət xadimləri ilə görüşləri də ənənə halını almışdı. 1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Azərbaycan xalqının böyük oğlu mərkəzi hökumətdə tutduğu vəzifənin imkanlarından istifadə edərək, İttifaq əhəmiyyətli bir sıra böyük layihələri Bakıya yönəltdi. Həmin illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onu daha da şöhrətləndirdi. Mixail Qorbaçov SSRİ-də siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi. Baş katiblə aralarında yaranmış ciddi fikir ayrılığı səbəbindən 1987-ci ildə tutduğu vəzifələrdən istefa verdi. Bundan bir il sonra Dağlıq Qarabağda separatçılıq hərəkatı baş qaldırdı, Azərbaycanın qara günləri başladı. Yəqin ki, o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, Azərbaycan xalqı Qarabağ problemi ilə, qara Yanvarla və digər faciələrlə üzləşməzdi. 1990-cı illərin əvvəlində - Vətənin ağır günlərində Ulu Öndər Azərbaycana qayıtdı. Ovaxtkı rəhbərlik onun Bakıya yolunu kəsdiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana getdi. Naxçıvan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Yetmiş ildən sonra ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızı ucaltdı.

## 1993-CÜ İL 15 İYUN - QURTULUŞ VƏ İNKİŞAF YOLU

Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Bu əlamətdar gündən ötən 29 il Azərbaycanın qurtuluş və zəfər dövrüdür. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu."Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən ümummilli lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, inkişafın təməllərini qoydu. Bu istiqamətdə ilk addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə atıldı. Sonrakı dövrdə ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə qədim İpək Yolunun bərpasına, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyətdə dövründə bu transmilli layihələrə Çini Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi. 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi.

## HEYDƏR ƏLİYEV İDEYALARININ İŞIĞINDA - DİNAMİK İNKİŞAF EDƏN, ƏRAZİ BÜTÖVLÜYÜ BƏRPA OLUNAN AZƏRBAYCAN

Ulu öndər Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyev son 19 ildə ümummilli liderin ideyalarının işığında böyük inkişaf yolu keçib, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bütün bunlar əyani şəkildə göstərir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz ulu öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. Təsadüfi deyil ki, Azərbaycanın Vətən müharibəsi, xüsusən misilsiz Şuşa əməliyyatı dünyanın aparıcı ölkələri tərəfindən öyrənilməkdədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Ulu öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Liderin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".Ruhun şad olsun, ulu öndər, artıq 28 ildən sonra Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bu gün müstəqil Azərbaycanın xoşbəxtliyi ondadır ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasətinin ardıcıllığını uğurla təmin edir. Sərəncamda vurğulandığı kimi, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Və ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirdi.Bir sözlə, böyük ulu öndər şəxsiyyətin ideyaları və əməlləri zaman bilmədən respublikamızda əbədiyyətə qədər davam edəcək. Ulu öndər buna inanır və deyirdi: "Mən Azərbaycanda əbədi olacağam".Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Əldə edilən hər bir uğurumuz Heydər Əliyevin xidmətləridir".

Və bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş və məqsədyönlü fəaliyyəti Heydər Əliyevin yandırdığı ocağın heç zaman sönməyəcəyinə əminlik yaradır. Çünki ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu 1993-2003-cü illərdə təməlini qoyduğu siyasi irsi, ata vəsiyyətini 19 ildir Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev layiqincə, şərəflə, inkişaf etdirməklə həyata keçirir. Və müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin ideyaları bundan sonra da müstəqil Azərbaycanın nailiyyətlərinin fövqündə dayanacaq. Çünki bu yol - Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur.

***RƏFİQƏ KAMALQIZI***

# Hamı niyə xəstədir?

***İnsanın bədəni sağlam olanda beyni də sağlam olar. Bununla siz daha xoşbəxt insan olursunuz. Bildiyimiz kimi, son günlər uşaqlar və böyüklər arasında ciddi qrip simptomları olan xəstəlik yayılıb. Bəs, bu nədən qaynaqlanır? Ölkədə demək olar ki, 100 nəfərdən 90-ı xəstədir. Bu xəstəlikdən özümüzü necə qorumalıyıq? Hansı addımlar atılmalıdır? SİA mövzu ilə bağlı araşdırma aparıb.***

Tənəffüs yolu infeksiyaları, Strep A, qrip kimi bir sıra tanınmış bakteriya və viruslar yeni epidemiya nümunələri ilə ortaya çıxır ki, bu da həkimləri və valideynləri narahat edir. Rabia Ağa Nyu Yorkdakı Maimonides Uşaq Xəstəxanasının uşaq yoluxucu xəstəliklər şöbəsinin müdiridir. Ağa bildirir ki, qış aylarında baş verən və tənəffüs yollarının infeksiyalarına səbəb olan respirator sinsitial virus (RSV) epidemiyası artır. Yetkinlərdə soyuqdəymə kimi hiss edilən bu virus bəzi kiçik uşaqlar üçün təhlükəli ola bilər.

RSV adətən çox kiçik uşaqlara təsir göstərir, lakin bu yaxınlarda müalicə olunan xəstələr 3-4 yaşındadır. Bu yaş qrupunda RSV adətən burun axması və öskürək ilə soyuqdəyməyə bənzər bir xəstəlik kimi ortaya çıxdı. İndi bəzi uşaqlarda xəstəlik daha ağır keçir.

Covid-19 epidemiyası zamanı bir çox ölkə virusun ötürülməsinin qarşısını almaq üçün ciddi məhdudiyyətlər tətbiq etdi. Uşaqlar həftələrlə, aylarla məktəbdən, bağçadan uzaq qaldılar. Məhdudiyyətlər aradan qaldırıldıqdan və məktəblər normal vəziyyətə qayıtdıqdan sonra həkimlər bəzi xəstəliklərin, o cümlədən RSV, qrip və A qrupu streptokokunun törətdiyi xəstəliklər, həmçinin strep A kimi tanınan bakteriyanın sayında vaxtaşırı artımların olduğunu deyirlər.

Sentyabrdan bəri Böyük Britaniyada 16 uşaq strep A infeksiyasından ölüb. Böyük Britaniyanın Sağlamlıq Təhlükəsizliyi Agentliyinin (UKHSA) məlumatına görə, 2017-18-ci illərdə ölkədə strepemiya A xəstəliyinin son mövsümü olan 18 yaşdan kiçik uşaqlarda ümumilikdə 27 ölüm qeydə alınıb. 2022-23 mövsümü hələ bitməyib və saylar arta bilər.









Epidemioloqlar pandemiyanın ilk ilində tənəffüs yoluxucu infeksiyaların az və ya çox dayandığını nəzərə alsaq, Covid-19 məhdudiyyətlərinin digər xəstəliklərin artma ehtimalını artırıb-artırmadığını araşdırmağa davam edirlər. Covid-19-a tutulmanın uşaqların immun sistemlərini müəyyən dərəcədə zədələyərək, onların digər xəstəliklərə qarşı həssaslığını artırması ehtimalına gəlincə, həkimlər belə bir təsirə dair heç bir dəlil olmadığını deyirlər.

## Bəs, xəstəlik günü-gündən niyə artır?

London pediatrı Ronny Cheung həftələrdir ki, İngiltərədəki digər həkim yoldaşları ilə müntəzəm konfrans zənglərində strep A infeksiyası və tənəffüs yoluxucu virusların uşaqlarda problemlərə səbəb olduğu barədə hesabatlar alır və "bu, diqqətəlayiqdir".

Məsələn, strep A adətən həyat üçün təhlükə yaratmır və boğaz ağrısı və ya tonzillitə səbəb olur, lakin nadir hallarda menenjit də daxil olmaqla ağır və bəzən ölümcül infeksiyalara səbəb ola bilər.

Belfast Queens Universitetinin virusoloqu Connor Bamford, tənəffüs yoluxucu virusların yayılmasının 2020 və 2021-ci illərdə məhdud olduğunu qeyd edərək, "Virusların, xüsusən də RSV və qripin (qrip) azalmasının şahidi olduq" deyir. Böyük Britaniyanın Səhiyyə və Sosial Baxım Departamenti bu tendensiyanı 2021-ci ilin martında təsdiqləyib. Avstraliya və Almaniyadan alınan məlumatlar da tənəffüs viruslarının eyni dövrdə düz bir xətt izlədiyini göstərir.



Tədqiqatçılar sonrakı aylarda qeyri-adi artım aşkar etdilər. Almaniyada aparılan bir araşdırma, ölkədə RSV səviyyələrinin 2021-ci ilin sentyabr-oktyabr ayları arasında pandemiyadan əvvəlki 2017-19-cu il dövrü ilə müqayisədə 50 dəfə artaraq rekord həddə çatdığını ortaya qoydu. Yeni Zelandiyadakı tibb tədqiqatçıları da 2021-ci ildə RSV hallarında böyük artım müşahidə etdilər.

İndi baş verən xəstəliklərin uşaqların sağlamlığına və ya immunitetinə uzunmüddətli təsir göstərəcəyi gözlənilmir. Lakin ekspertlər uşaqları mümkün qədər qorumağın vacib olduğunu deyirlər. Bəzi sosial məsafəni tətbiq etmək, izdihamlı yerlərdən qaçmaq, bəzi hallarda maskalar taxmaq və qapalı yerləri havalandırmaq bu problemdə bizə kömək edə bilər.

Bildirilir ki, strep A-nın qarşısını almaq üçün uşaq bağçasında və ya məktəbdə xəstəliyə yoluxma ehtimalını azaltmaq üçün profilaktik antibiotiklərdən istifadə edilə bilər. "Bütün bir məktəbə antibiotik vermək həddən artıq ağır olardı" deyən Murray, həddindən artıq təmas olduqda, antibiotiklərin bütün sinifə verildiyini və bunun yeni bir şey olmadığını qeyd edir.

Ağa və Cheung ümid edirlər ki, karantindən sonra uşaqlıq xəstəliklərində mövsümi artımlar sabitləşəcək. Ağa gələn ilin əvvəlində hər şeyin az-çox normala dönəcəyini gözləyir.

Lakin bu, o demək deyil ki, Covid-19 məhdudiyyətləri pis fikirdir və uşaqları lazımsız yerə risk altına alır.

Cheung Covid-19-un son dərəcə təhlükəli olduğunu və çoxlu ölümlərə səbəb olduğunu bildirir. Heç kimə sirr deyildi ki, bu cür sərt məhdudiyyətlər iqtisadi təsirdən tutmuş psixi sağlamlığa və digər viruslara qarşı toxunulmazlığa qədər bir çox mənfi təsirlərə malikdir.

## Uşaqlarda bu xəstəliklərin qarşısını necə almaq olar?

RSV, strep A, qrip və digər xəstəliklər və infeksiyaların yayılmasının qarşısını almaq üçün həkimlər və səhiyyə işçiləri valideynlərə tövsiyə edir:

- Əlləri 20 saniyə sabunla yumaq
- çirklənmiş eynəkləri, dəsmalları və ya digər əşyaları heç kimlə paylaşmamaq
- Uşaqlar öskürən və asqıran zaman salfetdən istifadə etmək, işlənmiş salfetləri tullamaq, əlləri sabun və ılıq su ilə yumaq
- Uşaqların bütün peyvəndlərinin vaxtında aparılmasını təmin etmək. (Bu, bir çox xəstəliklərdən, o cümlədən qızılca və poliomielit kimi çox yoluxucu və potensial təhlükəli xəstəliklərdən qoruya bilər)

Həkimlər deyirlər ki, məktəblərdə və ya uşaq bağçalarında streptom A epidemiyası baş verdikdə uşaqları qorumaq, antibiotiklərə qarşı müqavimətin inkişafının qarşısını almaq üçün antibiotiklərin təyin edilməsi addımı diqqətlə nəzərdən keçirilməlidir.

Antibiotiklərin həddindən artıq istifadəsi nəticəsində ortaya çıxan davamlı bakteriyalar xüsusilə yeni doğulmuş körpələr üçün təhlükə yaradır. Həmçinin, antibiotiklərin RSV kimi viruslara təsiri yoxdur.

Mütəxəssis pediatr Yüksəl Hüseynli: "Qışın gəlməsi ilə mövsümi xəstəliklərin rast gəlməsi şiddətlənib. Mövsümi xəstəliklər oktyabrdan aprelə qədərki dövrü əhatə edir ki, bu dövrdə 200-ə yaxın müxtəlif virus növləri respirator infeksiyalara səbəb olurlar.

Hazırda ən çox rast gəlinən RSV (respirator sinsitial virus), İnfluenza (qrip virusu), adenovirus, klassik və Covid -19 koronaviruslarıdır ki, ayrı-ayrılıqda və birgə tənəffüs yolu infeksiyalarıdır. Bu viruslar əsasən qapalı mühitdə, hava-damcı yolu ilə öskürmə, asqırma, viruslu əşyalarla təmas nəticəsində sürətli yayılırlar.

Qış aylarında bu xəstəliklərin kəskinləşməsinin əsas səbəbi insanların daha çox qapalı mühitdə vaxt keçirməsidir. Xəstəliklər uzun müddətli temperatur, asqırma, öskürmə, halsızlıq, əzələ ağrısı, baş ağrısı ilə özünü büruzə verir. Körpə uşaqlarda qidalanmanın və maye qəbulunun pisləşməsi intoksikasiya əlamətlərini artırır və xəstəliyi daha kəskin formada, uzun müddət keçirmələrinə səbəb olur.

Xəstəlikdən qorunmaq üçün əllər tez-tez yuyulmalı, xüsusilə baxça və məktəb yaşlı uşaqlara bu vərdişlər aşılanmalı, xəstə olduqda maska taxmalı,evdə qalıb istirahət etməli və uşaqları da bu müddətdə bağça və məktəbə göndərməməli, otaqların havası tez-tez dəyişdirilməli, otaqların 21-24 dərəcə temperatur və 50 % nəmişlikdə olmasına diqqət yetirməliyik. Risk qrupunda olan, tez-tez xəstələnən 6 aydan böyük uşaqlar və xüsusilə xroniki xəstəlikləri olan, kollektiv mühitdə çalışan şəxslərin dekabr ayına qədər qrip peyvəndi olunmaqları məsləhətdir.

Xəstə olan zaman evdə edə biləcəklərimiz bol isti mayelər qəbul edib mümkün qədər intoksikasiyanı azaltmalı, meyvə-tərəvəz çox qəbul etməli, təmiz havada çox olmalı, əgər özümüzün və ya uşağın vəziyyətində dəyişiklik hiss ediriksə həkimə müraciət etməliyik".

ARAŞDIRMA

***Ayşən Vəli***







# Çarəsizliyi etiraf edən SİYASİ MEYİT

***Maliyyə fırıldaqçısı kimi tanınan Ruben Vardanyan Qarabağda məskunlaşanda erməni əsillilərə qızıldan dağlar vəd edirdi, amma indi artıq çarəsizliyi etiraf etmək məcburiyyətində qalıb. Qarabağda yaşayan erməni əsillilərin qondarma, dırnaqarası "blokada" deyə bağırdıqları boş cəfəngiyyat bir tərəfə, indi onların ciddi böhranla üzləşdikləri barədə həmin maliyyə fırıldaqçısı dünyaya car çəkməyə başlayıb. Bəli, həqiqətən də Qarabağın erməni əsilli əhalisi ciddi böhranla üz-üzə qalıb, çünki Vardanyan kimi bir fırıldaqçı onlara çarə ola bilməzdi və olmadı da.***






Qarabağda yaşayan erməni əsillilər böyük çaşqınlıq içərisindədirlər və bunu indi hamıdan yaxşı bilən elə Vardanyan özüdür. Çünki onları elə bu çaşqınlığa salan da Ruben Vardanyandır və bu gün çarəsizliklərini də hamıdan yaxşı özü bilir. İndi ermənilər özləri də bilmirlər kimə inansınlar, amma bilməli idilər. Bilməli idilər ki, hansısa maliyyə fırıldaqçısı hansısa post iddiasında ola bilər, amma siyasətçi, idarəçi ola bilməz. Maliyyə fırıldaqçısı boş, əsassız olan yağlı vədlər verə bilər, amma reallıqda heç nə verə bilməz. İnsanları cəfəngiyyatla, boş-boş sözlərlə aldatmaq olar, amma həyati ehtiyaclarını təmin etmək olmaz, hansıki bunu ermənilər hamıdan yaxşı bilməli idilər.



Ermənilər birinci dəfə, yaxud bircə dəfə deyil, dəfələrlə yağlı vədlərlə aldadılıblar. Ümumiyyətlə, bu vaxta qədər onlara ancaq yalançı vədlər "yedizdirilib". Bu arada, Vardanyanın vədləri də onun qeyri-adı kəşfi deyildi və o da belə aldatmaları özündən əvvəlkilərdən bir təcrübə olaraq öyrənib və indi də tətbiq edirdi. Bir sözlə, Rusiyadan qaçıb Qarabağa soxulan fırıldaqçı özündən Amerika kəşf etməmişdi, koçaryanlardan, sarkisyanlardan "dərs almışdı". Məsələ burasındadır ki, dərsini yaxşı mənimsəməyibmiş, əks halda, onların yalançı vədlərinin sonda hansı ağır nəticələr verdiyini, özlərinin də məğlubiyyətlərini nəzərə alar, başa düşər, ən azından xatırlamalı olardı.

Laçın yolunda ekoaktivistlərin aksiyasına don geyindirməyə çalışan, utanmadan bunu "blokada" adlandıran, İkinci Dünya müharibəsində Leninqradın 872 gün davam edən hərbi blokadası ilə ekoaktivislərin aksiyalarını həyasızcasına müqayisə edən Ruben Vardanyan guya bilmirmi ki, ermənilərin bu vəziyyətə düşmələrinin səbəbkarı da elə özüdür? Rus xalqından oğurladığı pulları götürüb aradan çıxan və bununla Qarabağda özü-özünü dırnaqarası "dövlət naziri" elan edən bir fırıldaqçı min hoqqadan çıxmasaydı, ölkəmizin ərazisində ekoloji terror törətməsəydi, Azərbaycana məxsus sərvətləri qeyri-qanuni şəkildə mənimsəməsəydi, talamasaydı nə Laçın yolunda ekoaktivistlər aksiya keçirərdi, nə də ermənilər özlərini dalana qısılmış hiss etməzdilər. Doğrudur, Qarabağın erməni əsilli əhalisini Azərbaycan dövlətini sıxışdırmaq kimi bir niyyəti belə yoxdur, hətta vətəndaşlığı, qanunları qəbul edildiyi təqdirdə təhlükəsizliklərinin təmin ediləcəyi bəyan edilib, amma artıq Vardanyan kimi fırıldaqçıya inananlar, ona alət olanlar bunun müqabilində özlərini sıxılıb qalmış hiss edirlər ki, bu da anlaşılandır.

Özünü bir qədər əvvəl xilaskar kimi sırıyan qondarma "dövlət naziri" indi vaxtaşırı jurnalistlər qarşısına çıxır, yalandan erməni əsillilərin təhdid olunması, bəlaları barədə Ermənistana yalançı ismarıclar göndərir, hansısa yardıma gözünü dikir. Bir növ, hiyləgərcəsinə hədə-qorxuya əl atır ki, bununla nə isə əldə etsin. Bu hədələrin bir nəticə verib-verməyəcəyi müzakirə mövzusu deyil, müzakirə mövzusu Rusiyadan qaçıb Qarabağa dürtülən və vədlər verən birinin dizlərini yerə qoymasıdır. Vardanyan "həyəcan təbili çalmaqla" bir tərəfdən də beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək, ən azından reaksiyasını öyrənmək niyyətindədir və bu da onun son mahiyyətini açıb ortaya qoyur.

"Biz artıq ehtiyat fondundan istifadə edirik. Mağazalarda demək olar ki, mal yoxdur. Hökumət bu və ya digər şəkildə ərzaq, dərman, benzin problemini həll etməyə çalışır. Biz acından ölməyəcəyik. Amma insanların yaşadığı şərait son dərəcə ağırdır. Bu vəziyyət uzun müddət davam edə bilər və biz buna hazırlaşırıq, vəziyyət elədir ki, biz uzun blokadaya hazır olmalıyıq", deyə qondarma "nazir" Qarabağın erməni əhalisinin gələcək çətinlikləri guya proqnozlaşdırır. Əslində isə, Vardanyanın bu "proqnozu" acizliyi özündə təcəssüm etdirir. Doğrudur, Qarabağın erməni əhalisi əslində çətin günlər yaşayır, amma azərbaycanlı aktivistlərə, onların aksiyalarına görə yox, məhz aldadıldıqlarına görə, məkrli oyunlara alət olduqlarına görə çətinliklə üz-üzədirlər. Əsrin üçdə birinə yaxın müddət ərzində onların daha yaxşı yaşamaq ümidləri ancaq rejimin boş vədləri ilə qidalanırılıb, amma artıq bunun nəticəsiz, təsirsiz olduğu üzə çıxdığında çarəsizlikləri də hamıdan öncə özlərinə bəlli olub.

Torpaqlarımızın 20 faizi düşmən işğalı altında olduğu zamanlarda belə separatçılarla danışıqlar aparılmayacağını Azərbaycan bəyan etmişdi. Maraqlıdır, torpaqlarını hərbi yolla cəmi 44 gün ərzində işğaldan azad edən, Ermənistan tərəfini ən qısa zamanda rüsvayçı məğlubiyyətə uğradan Azərbaycanın bundan sonra separatçı rejimlə danışıqlar aparacağına inanan, ümid edən bircə dənə də olsun axmaq erməni varmı? Bir sözlə, Vətən Müharibəsindəki möhtəşəm qələbəsindən sonra Bakının onlara qulaq asacağına gizli də olsa belə ümid bəsləmək axmaqlığın son həddidir. Görünür, elə bu axmaqlıqdan yaxa qurtarmaq üçün Qarabağ erməniləri hər gün daha çox, daha yaxşı başa düşməyə başlayırlar ki, onların bütün problemləri separatçı rejimdən, xüsusən də ona rəhbərlik edən Vardanyandan qaynaqlanır. Qarabağın erməni sakinlərinin getdikcə sosial şəbəkələrdə qondarma "fiqurlardan" narazılıqlarını ifadə etməyə başlamaları da təsadüfi deyilmiş. Bu, əslində təkcə maliyyə fırıldaqçısına olan inamsızlıq deyil, onun bir siyasi meyitə çevrilməsi deməkdir.

Azərbaycanın təbii sərvətlərini talan edənlərə, ekoloji terror törədənlərə qarşı keçirilən və hələ də davam edən aksiyalar Vardanyan kimi manipulyatorun maskasını cırdı, planlarını da alt-üst etdi. Ekoaktivistlərin dinc aksiyalarından məkrli məqsədləri üçün istifadə etməyə çalışanlar özlərini ifşa etmiş oldular. Dünya ictimaiyyəti hər gün daha çox əmin olur ki, blokada deyilən bir şey yoxdur və bunu Vardanyanlar özlərindən uyduraraq sui-istifadə etmək istəyirlər. Bu həqiqətin dünya tərəfindən qəbul edilməsi isə özünü dırnaqarası "dövlət naziri" elan edən biri üçün nə demək olduğu da bəllidir və artıq onun siyasi meyit olduğu zərrə qədər şübhə doğura bilməz, hansı ki, özü də bunu yaxşı başa düşür. Əks halda qara-qışqırıq salıb yardım dilənməzdi.

***İnam Hacıyev***

# Məhsul seçərkən onun keyfiyyətini necə müəyyən etmək olar?

**İnkişaf etmiş ölkələrdə (ABŞ, Aİ ölkələrində, xüsusilə Yaponiyada) alim və ekspertlər daxili bazar üçün vacib olduğundan keyfiyyət və etibarlılıq, məhsulun keyfiyyətinə nəzarət, statistik keyfiyyətə nəzarət və keyfiyyətin yüksəldilməsi problemlərinə böyük diqqət yetirirlər.**



## Bir məhsul alarkən onun keyfiyyətini necə müəyyən etmək olar?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Ümumiyyətlə, məhsulun potensial alıcılarının tələblərinin vurğulanmasını keyfiyyət və rəqabətqabiliyyətlilik sahəsində ən aktual hissədir. Bu konsepsiyaya uyğun olaraq, məhsulun keyfiyyəti satın alınan malların istismarı zamanı istehlakçı tələblərinin nə dərəcədə qane edildiyi ilə müəyyən edilir. Bu baxımdan, bir çox müasir tədqiqatlar məhsulun keyfiyyəti anlayışını son vaxtlara qədər olduğundan bir qədər fərqli şəkildə izah edir. Hər bir layihədə və yeni məhsulların yaradılması prosesində keyfiyyət olmalıdır. Hal-hazırda, müxtəlif ölkələrdə keyfiyyətin idarə edilməsi təcrübəsini ehtiva edən ümumi qəbul edilmiş 9000-nə yaxın beynəlxalq standartlar mövcuddur.





Bir çox ölkələr rəqabət üstünlüyü uğrunda mübarizə əsasında keyfiyyətin idarə edilməsi konsepsiyasını tətbiq edirlər. Bu konsepsiyanın metodoloji əsasları şirkətin müştəri tələblərinə uyğunlaşdırılması nəzəriyyəsini əhatə edir. Bu halda idarəetmə prosesləri beynəlxalq standartlarının tələblərinə əsaslanmalıdır. Artan rəqabət və eyni qiymət seqmentində eyni məhsulların müxtəlifliyi şirkətləri müştəri loyallığını qazanmağa yönəlmiş rəqabət üstünlükləri yaratmaq üçün yeni yollar axtarmağa imkan verir. Elmi-texniki tərəqqinin inkişafı və biliyin artan rolu müəssisədə istehsal, təşkilati, idarəetmə və paylama proseslərində innovativ həllər tələb edir. Yeniliklər müəssisələrə məhsulun keyfiyyətini yaxşılaşdırmağa, əmək məhsuldarlığını artırmağa, xərcləri azaltmağa və bununla da bazarlarda öz rəqabət qabiliyyətini artırmağa imkan verir. Məhsulun standartlaşdırılması və sertifikatlaşdırılması məhsulun keyfiyyətinin təminatı üçün vacibdir, çünki o, məhsulun keyfiyyətinin idarə edilməsi və rəqabət qabiliyyətinin idarə edilməsinin mühüm tənzimləyici komponentidir.



Qiymət sistemi həm də istehsalın artımını stimullaşdırır və məhsulların keyfiyyətini artırır. Qiymət və məhsulun keyfiyyəti bir-biri ilə əlaqəli və bir-birindən asılıdır. Eyni zamanda, istehsal üçün sosial zəruri xərclərin səviyyəsini tam müəyyən etmək üçün qiymətlərin formalaşmasında keyfiyyətli məhsullar nəzərə alınır. Heç kimə sirr deyil ki, yüksək keyfiyyətli məhsul daha yüksək qiymətə satılır. İnnovasiyaların inkişafı və onların istehsala geniş tətbiqi müəssisələrə məhsullarının keyfiyyətini yüksəltməyə kömək edəcək və daha az xərclə rəqabət aparmağa imkan verəcək.

Texnologiyaların intensiv inkişafı və onların müştəri loyallığını qazanmaq üçün geniş tətbiqi sayəsində müəssisələr uğurla rəqabət aparmağın yeni yollarını axtarmalıdırlar ki, bu da qlobal bazara çıxmağa kömək edə bilər. Bir çox şirkətlər brendin özü ilə keyfiyyət arasında bərabər ideyasını təbliğ edirlər.

Keyfiyyət Assosiasiyası İctimai Birliyindən SİA ya verilən müsahibədə qeyd olunur: "Məhsul alarkən onun keyfiyyətini iki üsulla müəyyən edilə bilər. Birincisi vizual üsuldur. Vizual üsulda əsasən məhsulun xarici görünüşünə və etiket məlumatlarına diqqət edilir. Əgər hər hansı bir pozulma halı varsa mütləq şəkildə özünü müxtəlif (qapağın şişməsi, rəngin dəyişməsi, çürümə, əzilmə və s.) formada göstərir. Pozulma halları gizli formada da ola bilər. Bu zaman vizual baxış zamanı fiziki dəyişiklik aşkar olunmur. Məhsulun etiketi üzərində qeyd olunmuş məlumatların yoxlanılmasıda visual yoxlama üsuluna aiddir. Məsələn, istehsal tarixinin çox keçmiş olması və istifadə müddətinin bitməsi kimi. Məhsulun tərkibi haqqında etiket üzərində verilən məlumatlardanda məhsulun yuxarı, orta və ya aşağı keyfiyyətli olması haqqında da məlumat əldə etmək olur. Məhsulların saxlanma və istifadə müddətinin az olması qatqıların az istifadə olunmasının göstəricisidir. Məhsulun istehsalı müddətində istifadə olunan qatqı maddələrinin (qoruyucular, rəngləndiricilər, aroma və dad vericilər, stabilizatorlar/homogenləşdiricilər/qatılaşdırıcılar) sayı və miqdarıda keyfiyyətə və qida təhlükəsizliyinə təsdir edən əsas faktorlardandır. Keyfiyyəti müəyyən edən ikinci üsul orqanoleptikadır. Bu üsulla keyfiyyətin təyin edilməsi insanın hiss üzvləri (görmə, iybilmə, dadma, lamisə (toxunma hissi) və eşitmə) vasitəsilə həyata keçirilir. Orqanoleptiki üsulla - yeyinti məhsullarının xarici görünüşü, iyi, dadı, rəngi, konsistensiyası, quruluşu, xırdalanma dərəcəsi və s. müəyyən edilir".

## Bəs ölkəmizə gətirilən bütün məhsulların keyfiyyəti necə yoxlanılır və bu istiqamətdə problemlərə rast gəlinirmi?

Qurumdan verilən açıqlamada həmçinin bildirilir: "Ölkəmizə gətirilən qida və yeyinti məhsullarının minimum keyfiyyət göstəricilərinin və təhlükəsizliyinin yoxlanılmasına cavabdeh qurum Azərbaycan Qida Təhlükəsizliyi Agentliyidir.

Qeyri-qida məhsulları ilə bağlı isə vəziyyət heç də ürəkaçan deyil. Hazırda bunu icra edən qurum yoxdur. Yalnız hər hansısa bir şikayət olduğu halda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən müdaxilə olunur. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası qanununun tətbiq olunması qeyri qida məhsullarının ən azından mühüm keyfiyyət göstəricisi olan təhlükəsizlik göstəriciləri baxımından yoxlanılmasını təmin edəcək. Bu, həm ölkəyə idxal olunan, həm də ölkədə istehsal olunan məhsullara münasibətdə tətbiq olunacaq".

ARAŞDIRMA

***Havar Şəfiyeva***

# “İran Azərbaycandan üzr istəməlidir!”

*POLİTOLOQDAN REAKSİYA*






**“İran və Azərbaycan münasibətləri 2020-ci ilin sonlarından Azərbaycanın Vətən müharibəsindəki zəfərindən sonra yaratdığı reallıqlar fonunda daha açıq və qabarıq şəkildə özünü göstərməyə başladı”. Bu sözləri SİA- ya açıqlamasında Politoloq Anar Əliyev deyib.**

Onun sözlərinə görə, Azərbaycanın Cənubi Qafqazda mövqelərinin güclənməsi və bir çox havadarlarının köməyi ilə işğal müddətini uzatmağa çalışan Ermənistanın məğlub edilməsi və işğalçı siyasətinin aradan qaldırılması, eyni zamanda 130 kilometrlik nəzarətsiz qalan Azərbaycan İran sərhədini Azərbaycan sərhəd qoşunlarının nəzarətə alması, işğal dövründə Qarabağdakı münbit ərazilərdən narkotik plantasiyaların Ermənistan seperatçı qüvvələri ilə birgə istifadəsinin qarşısının alınması, Qarabağ ərazisindən keçən qanunsuz narkotik trafikinin dayandırılması İran üçün çox ciddi siyasi, iqtisadi, maliyyə cəhətdən pis nəticələr doğurmuş oldu.

Bu həm də İran üçün çox ciddi təhlükə kimi qiymətləndirildi. Çünki İran hələ Azərbaycan müstəqillik elan etdiyi ilk dövrlərdən Azərbaycana qarşı əks kompaniya aparmağa başladı. Eyni zamanda Azərbaycanın müstəqilliyin dağıdılması və parçalanması, məhv edilməsi üçün müxtəlif səylər göstərməyə çalışırdılar. İran hesab edir ki, güclü Azərbaycan böyük bir hissəsini əhatə edən cənub ərazilərində milli azadlıq hərəkatının güclənməsinə İranın parçalanmasına və Azərbaycanın əvvəlki cənub torpaqlarının yenidən birləşməsinə gətirib çıxara bilər.

İran buna görə bütün mümkün variantlardan istifadə etməklə Azərbaycanın müstəqil inkişafının qarşısını almağa çalışır və davamlı şəkildə Azərbaycana problemlər yaratmaq niyyətindədir. Birinci Vətən müharibəsi dönəmində İranın dəstəyi ilə Ermənistan separatçılarının ərazilərimizi necə işğal etdiyini və atəşkəs dönəmində İranın Qarabağdakı separatçı qüvvələrin ayaqda saxlamaq üçün etdiyi yardımları xatırlayırıq”.

Politoloq Anar Əliyev sözlərinə əlavə edərək bildirib ki, eyni zamanda din pərdəsi altında Azərbaycanın daxili işlərinə müdaxilə etmək və digər qonşu dövlətlərdə olduğu kimi özünün saxta İslam və şiə adı altında molla rejminin maraqlarına xidmət edən qruplar formalaşdırmaq və həmən maraq qrupları vasitəsilə Azərbaycan dövlətinin siyasətinə təsir etmək və onu yönləndirməyə çalışıb: ”Terrorçu qruplar formalaşdırmaq və Azərbaycan daxilində müxtəlif terror hadisələri törətməklə Azərbaycanın başını qatmaq və regional gücə çevrilməsinin qarşısını almağa çalışıb. Hesab edirəm ki, 44 günlük vətən müharibəsindən sonra İranın aqressivliyi daha da artdı. Çünki, Azərbaycan işğal faktorunu aradan qaldırmaqla yanaşı bölgədə böyük gücə və söz sahibinə çevrilmiş oldu. Cənubi Qafqazda Azərbaycanın maraqlarını və iradəsini nəzərə almadan hər hansı bir fəaliyyət həyata keçirmək mümkün deyil. Bunu artıq İran və Avropa dövlətləri kimi bölgədə maraqları olan güclər də gördü və qəbul etdi. Bu, heç də İranın molla rejiminin maraqlarına uyğun deyildi. Bunları nəzərə alaraq İranın cinayətkar molla rejimi Azərbaycana qarşı açıq kampaniya və təbliğata başladı. Azərbaycanda qanuni legitim dövlət strukturlarını nüfuzdan salmaq və onlara qarşı öz ideologiyalarının təsiri altında olan qruplar vasitəsilə xalq etirazlarını formalaşdırmağa çalışırdılar. İran Azərbaycanın daxili işlərinə müdaxilə etməyə çalışıb.

Son dövrlər İran daxilində baş verən hadisələr xalq iğtişaşları və molla rejiminin öz vətəndaşlarına törətdiyi cinayətlər göstərir ki, İran vətəndaşlarıda bu terrorist davranışlardan bezibdir. Ciddi sosial-iqtisadi, siyasi böhranlar içərisində olan İran cəmiyyəti milyardlarla vəsaitini qonşu dövlətlərin ərazisində terrorçu qrupların saxlanılmasına sərf edilməsini qəbul etmək istəmir. İran cəmiyyəti azadlıq və demokratiya istəyir. İran böyük xalqların həbsxanasına çevrilibdir. İran cəmiyyəti müasir hüquqların təmin olunduğu dövlət arzulayır. Xalq bu istiqamətdə öz etirazını bildirir”.

Anar Əliyev son olaraq qeyd edib: ”Çox təəssüf ki, İranın cinayətkar molla rejimi bu gün öz xalqına qarşı növbəti cinayətlərini törədir. Bu azmış kimi Cənubi Azərbaycan bölgəsində yaşayan soydaşlarımızın hüquqlarının pozulmasına qarşı Şimali Azərbaycanda yaşayan soydaşlarımızın reaksiyasını və tələblərini İranın daxili işlərinə müdaxilə kimi qiymətləndirirlər. Buna görə Azərbaycana təhdidlərə səslərdirirlər. İran rəsmiləri sərsəm, mənasız bəyanatlar səsləndirirlər. İran rəsmiləri etdikləri səhvləri düzəltmək əvəzinə eyni ritorikanı davam etdirərək Ermənistanla münasibətləri inkişaf etdirmək xətti tuturlar. İran özünü İslam qaydalarına riayət edən bir dövlət adlandırsa da, İslamiyyətə uyğun olmayan davranışlar sərgiləyir. Hətta məscidləri təhqir edən, məscidlərimizdə donuz və mal-qara saxlayan və minlərlə müsəlmanı qətlə yetirən Ermənistanı özünə qardaş seçib. Mehridə İran konsulluğu açaraq gülünc hədəfə çevrilmişdir. İran hesab edirdi ki, bu vasitə ilə Azərbaycanın geri çəkilməsinə nail olacaq. Amma Azərbaycana qarşı atılan addımlar və İranın sərgilədiyi Ermənistan sevdası İranının daxilində vəziyyəti daha da gərginləşdirməyə və molla rejiminin süqutuna gətirib çıxaracaqdır. İran siyasiləri törətdikləri cinayətlərə görə xalq qarşısında cavab verəcək. İranın yeganə xilas yolu gec olmadan qonşu dövlətlərdən və Azərbaycandan üzr istəməkdir”.

***Qönçə Quliyeva***



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# Ərdoğana qarşı əzik ”6-lıq”

**Qardaş Türkiyədə keçiriləcək Prezident seçkiləri artıq indidən böyük müzakirə predmetinə çevrilib. Son on il ərzində dünya siyasətində mühüm fiqurlardan birinə, regionda isə əsas söz sahibinə çevrilən Türkiyə dövləti, dostlu-düşmənli hər kəsin diqqətindədir. Sevənləri və sevməyənləri ilə birlikdə.**

Hazırkı Prezident, 2003-cü ildən iqtidarda olan Rəcəb Tayyib Ərdoğan əleyhdarları var gücləri ilə onu çıxdaş etmək üçün ağıl və məntiq çərçivəsindən tutmuş ta ağlagəlməz hər şeyə qədər bütün yolları ”dənəsələr” də, sonda görünən odur ki, hakimiyyət sükanını R.T.Ərdoğan idarə edir. Türkiyə cəmiyyətində də hazırkı iqtidara qarşı kəskin əks münasibətin olmaması, üstəlik, xarizma olaraq Ərdoğanın Türkiyənin çağdaş tarixində mühüm siyasi qüvvə kimi özünə möhkəm yer etməsi, Türkiyəni daha müstəqil siyasət aparan və sözü eşidilən dünya güclərinin siyahısına çıxara bilməsi ona olan ictimai dəstəyi də gücləndirib.

Türkiyədəki müxalifət qüvvələri isə, bu vaxta qədər bütün seçkilərdə hələ ki, İstanbul və Ankara Bələdiyyə sədrliyini qazanmaqdan başqa heç bir uğura imza ata bilməyiblər. Həm ana müxalifət adlandırılan Cümhuriyyət Xalq Partiyası, həm də digər siyasi qruplaşmalar son 10 il ərzində keçirilən heç bir seçkidə mütləq qələbəyə sevinməyiblər. Xüsusilə, milliyyətçi siyasi düşərgənin əsas yuvası sayılan MHP-nin hazırkı prezident Ərdoğanı dəstəkləməsi həm parlamentdəki yerlərin, həm də ictimai rəyin AKP iqtidarının xeyrinə dəyişməsinə səbəb olub. MHP-nin Ərdoğan iqtidarını dəstəkləməsi, həm də birbaşa müxalifətin səslərinin parçalanmasına və təsir dairəsinin daralmasına gətirib çıxarıb. CHP lideri Kamal Kılıcdaroğlunun hər seçkidə lider olaraq önə keçmək əvəzinə, özünə olan inamsızlıqdan və seçkinin nəticələrindən qorxub arxa planda dayanması, son prezident seçkilərində namizədliyini irəli sürməməsi müxalifətə olan ictimai dəstəyi və siyasi inamı da yerlə bir edib.

Bu adamın liderlik qabiliyyətinin olmaması, seçkilərdə məsuliyyəti öz üzərinə götürməməsi, Ərdoğana qarşı tribunalardan boş hay-küy salmaqdan başqa heç nəyə yaramaması CHP-nin hazırkı iqtidara qarşı güc göstərməsini də acı xəyala çevirir. Günü bu gün Türkiyə ictimai rəyində əsas fikir ondan ibarətdir ki, hazırkı müxalifət cəbhəsində Ərdoğana qarşı meydana çıxa biləcək xarizmatik lider yoxdur. Bu məsələdə ictimai rəy tam haqlıdır. Çünki hazırda anti-Ərdoğan cəbhəsində altı siyasi partiyanın birləşdiyi ”6-lı masa” adlanan ittifaq, onların liderləri türklərin təbirincə desək, ”rəisə” qarşı siyasi mübarizə aparmaq gücündə deyillər. ”6-lı masa”da yer alan siyasi qüvvələrin öz aralarında da fikir müxtəlifliyi var.

Əvvəla ondan başlayaq ki, altı siyasi partiyadan ikisinin rəhbəri Ərdoğanın keçmiş nazirləridir. Əhməd Davudoğlu və Əli Babacan Ərdoğan hökumətində önəmli siyasi karyera sahibi olublar, sonradan AKP iqtidarını tərk edərək ona qarşı müxalifət mövqeyinə keçiblər. Amma maraqlısı odur ki, bu iki siyasi fiqurun sürətlə təşkilatlanması, böyük və dəbdəbəli ofisə, güclü mühafizə xidmətinə, bahalı maşınlara sahib olması qətiyyən təsadüf sayıla bilməz. Ərdoğanın keçmiş kadrlarının bu şəkildə siyasi səhnəyə ATILMALARI, güclü media dəstəyi istər-istəməz ”Davudoğlu və Babacan yenə Ərdoğanın ”əlinə çalışır” fikrini gündəmə gətirir. Çünki hər iki adıçəkilən keçmiş nazirlərin zərrəcə də olsun Türkiyə cəmiyyətində sıfır səviyyəsində belə siyasi çəkisi yoxdur. O ittifaqdakı əsas siyasi fiqur sayılan İYİ partiya lideri Meral Akşener də keçmiş MHP-çidir, Türkiyə parlamentində vitse-spiker olub. CHP lideri K.Kılıcdaroğlundan fərqli olaraq bu xanım siyasətçi daha kəskin çıxışları, qətiyyətli mövqeyi ilə öndədir. Amma CHP-nin PKK terror təşkilatına yaxınlığı ilə seçilən HDP-yə, həbsdə olan Səlahəddin Dəmirtaşa loyal münasibəti M.Akşenerlə CHP arasında ciddi fikir ayrılıqlarına yol açıb. Üstəlik, Ərdoğan ilə açıq düşmənçilik aparan qərbdəki qüvvələrin hazırkı iqtidarı devirmək üçün məhz M.Akşenerə dəstək göstərdikləri də hiss olunur. Xüsusilə, mediada Ərdoğana qarşı açıq düşmənçilik edən Fətullah Gülən qruplaşmasının da xanım Akşenərə dəstək göstərdiyi deyilir. Lakin açıq şəkildə görünən odur ki, M.Akşenerin də ”Rəisi” üstələmək şansı yoxdur. Həm də unutmaq olmaz ki, əgər Türkiyə siyasətində Ərdoğanı əzib keçəcək bir xarizmatik siyasətçi olsaydı, çoxdan qərbdəkilər onun imicini bəzəyib-düzəyib Ərdoğanla siyasi mübarizəyə atmışdılar.

Son vaxtlar İstanbul Bələdiyyəsinin hazırkı sədri, CHP-çi Əkrəm İmamoğlu müxalifətin vahid namizədi kimi daha çox gündəmə gəlir. Bir çoxları İstanbul Bələdiyyəsinə keçirilən son seçkilərdə Ərdoğanın ən yaxın adamı, keçmiş Baş nazir Binəli Yıldırımı üstələyərək böyük səs çoxluğu ilə qələbə qazanan Ə.İmamoğlunun Ərdoğanla seçki yarışında daha şanslı namizəd olduğunu düşünsələr də, ”6-lı masa” bu məsələdə də vahid qərarda deyil. Ə.İmamoğlunun öz partiyası onu bu seçkilərdə müxalifətin vahid namizədi kimi Ərdoğanla ”döyüşə” atmaq istəmir. Əvəzində İYİ partiya sədri M.Akşener onun namizədliyində israr edir. Görünən odur ki, CHP Ə.İmamoğlunu hazırkı seçkilərdə Ərdoğanla mübarizəyə atmayacaq. Sanki Türkiyə müxalifətində Ərdoğan üzərində qələbə üçün hələ şəraitin yetişmədiyini düşünürlər. Deməli müxalifətin özü bu seçkilərdə qələbəsinə o qədər şübhə ilə yanaşır ki, əsas ”silahını” açıq döyüşə atmır, sanki AKP iqtidarının məğlub olması üçün münasib şəraiti gözləyir. Bir sözlə, bu il keçiriləcək seçkilərdə əzik ”6-lı masa”nın Ərdoğanı üstələyəcəyi mümkünsüz görünür.

Həm də unutmaq lazım deyil ki, Ərdoğanın bu seçkilərdə məğlubiyyəti bütün bölgədəki prosesləri də kökündən dəyişməli olacaq. Vladimir Putinin şəxsi hakimiyyətindən başlamış Ukrayna böhranına qədər, yaxın Şərqdəki proseslərdən başlamış elə bizim Qafqaz bölgəsindəki hazırkı proseslərə qədər HƏR ŞEY DƏYİŞMƏLİ OLACAQ. Ərdoğan həm də hazırkı situasiyada Qərb üçün də önəmli siyasi aktordur. V.Putinlə şəxsi təmasları, Ukraynadakı proseslərə Vladimir Zelenskinin rəğbətini və etibarını qazanan lider kimi müdaxiləsi, taxıl böhranını aradan qaldırması onu bütün tərəflər üçün vacib oyunçuya çevirib. Türkiyə cəmiyyəti də hazırkı hökumətin bəzi nazirlərinin, siyasi mənsublarının adlarının korrupsiya və digər məsələlərdə hallanmasına baxmayaraq, Ərdoğan kursunu dəstəkləyir. Hazırkı ictimai rəy tablosu ən azından indilik belə görünür. Ərdoğanı üstələmək üçün Türkiyə müxalifəti hələ neçə seçki gözləyəcək, artıq onu zaman göstərəcək...

BAXIŞ BUCAĞI

# Yalan maşını - "Le Figaro"

Yazının başlığına bu söz düzümünü çıxarmaqda məqsədimiz heç də son günlər Fransanı tənqid edənlərin sırasına qoşulmaq deyil. Ümumiyyətlə, Fransanın bütün ”cəbhə boyu” Azərbaycana qarşı hücuma keçməsinin bir sübutunu təqdim etməkdir. Bu gün Ermənistan yalan, Fransa gerçək olub, daha doğrusu İrəvan Bakıdan almalı olduğu dəmir yumruğun dadını hələ də damağında hiss edir, Paris isə, deyəsən bu daddan daha çox bəhrələnib, deyə Azərbaycana qarşı davranışını dəyişib. Fransa mediası çirkli təbliğatı ilə gündəmdədir. ”Le Figaro” qəzetinin timsalında ”qara piar” kampaniyası aparan rəsmi Paris ”120 minlik Artsax ermənisinin ”boğulması” Azərbaycanın əsl hərbi əməliyyatıdır” deyə yalan maşınının odluğunu körükləməkdədir. Qəzetin baş redaktorunun müavini Jan-Kristof Buisson (55 yaşı var, Lyon Universitetini bitirib) özünün Twitter mikrobloqunda yazıb ki, azərbaycanlıların 29 gün ərzində Laçın dəhlizini bağlayıb. Əlavə edib ki, ”əslində onlar ətraf mühit fəalı kimi maskalanan əsgərlərdir”.


LE FIGARO
lefigaro.fr
UKRAINE
LES ÉGLISES ORTHODOXES ROMPENT AVEC MOSCOU
PAGES 10 ET 11
BIENNALE DE VENISE
LES RETROUVAILLES DE LA CITÉ DES DOGES AVEC L'ART
PAGES 30 ET 31

Araşdırma aparmadan, hadisə yerində olmadan bu cür yalan məlumatlar yaymaq nəyə xidmət edir? Həmişə Qərb mətbuatını bizə bir örnək kimi, həqiqəti yazan media qurumları kimi təqdim ediblər. Budurmu, obyektivlik, budurmu qərəzsiz olmaq? Görünür, Fransa mətbuatı söz azadlığı, informasiya dəqiqliyi, qərəzsizlik, vicdanlı olmaq kimi keyfiyyətlərdən uzaqdırlar, kimlərinsə, hansısa tərəflərinsə əl buyruqçularıdırlar. Belə olmasaydı, ”Le Figaro”nun əməkdaşı bircə dəfə də olsa Laçın yolunda görüntülənərdi, hadisə barədə oxucularına daha dəqiq məlumat verərdi. Media qurumu buna cəhd belə etməyib. Dünya mediası isə ”Le Figaro” jurnalını birtərəfli ermənipərəst mövqeyinə görə qınayıb. Jan-Kristof Buisson Azərbaycan ordusunun Qarabağdakı hərəkətləri ilə Əfqanıstandakı ”Taliban”ın davranışı arasında uğursuz paralel apardıqdan sonra özünü beynəlxalq qalmaqalın mərkəzində tapıb. Buisson Taliban döyüşçülərinin Pəncşir əyalətində əfsanəvi Əhməd şah Məsudun məqbərəsini dağıddıqları barədə təsdiqlənməmiş məlumatlardan istifadə edərək, bu barədə heç bir soruşmağa belə aparmadan, açıq şəkildə Ermənistanın tərəfini tutub və bunu ”Qarabağda dağıdılmış xaçkarlar və erməni abidələri” ilə müqayisə edib.

Bir sıra dünya mediası belə mövqeyə görə həm nəşri, həm də Jan-Kristof Buissonu qınayıb. Xüsusilə, İspaniya, Meksika, Ekvador mətbuatı məqalələr dərc edərək ”Le Figaro Magazine”-dən sivil bir ölkəyə qarşı ləyaqətsiz davranışa son qoymağı məsləhət görüblər. 1news.az saytı oxucularının diqqətinə xarici KİV-lərdən birinin bu mövzuda yazdığı məqalənin tərcüməsini təqdim edib.

”Müstəqil media qərəzsiz olmalı və lobbi qruplarının maraqlarına xidmət etməməlidir. Beynəlxalq mətbuat olaraq ”Le Figaro” jurnalının redaktor müavini Jan-Kristof Buissonun tvitində azərbaycanlılar və Qarabağla bağlı bəyanatını pisləyirik. Mətbuat heç vaxt birtərəfli olmamalıdır. Amma tam aydındır ki, cənab Jan-Kristof Buisson bunu başa düşmür, bəlkə də bunu başa düşmək istəmir. Və bunu öz maraqları üçün edir. Necə ola bilər ki, özünü demokratik və azad nəşr hesab edən ”Le Figaro Magazine”in redaktor müavini erməni lobbisinin maraqlarını müdafiə edir? Bu o deməkdirmi ki, Le Figaro jurnalı demokratik və ya neytral jurnal deyil? Jan-Kristof Buissonun Twitter-də yazdığı fikir təkcə Buisson üçün deyil, nəşrin bütün kollektivi üçün böyük məsuliyyət daşıyır”.

Azərbaycan həmişə dünyəvi ölkə olub, hər bir guşəsində, müxtəlif xalqların və dinlərin vətənində sinaqoqlar, məscidlər, kilsələr, hətta atəşpərəstlərin məbədləri var. Çünki tarixi inkişafı, coğrafi mövqeyi və etnik tərkibi Azərbaycanın dini müxtəlifliyini müəyyən edir. Azərbaycan multikulturalizm dəyərlərinə və həm Azərbaycanda, həm də xaricdə dini abidələrin qorunmasına sadiqdir. Tarixdə ilk dəfə olaraq Azərbaycan əhalisinin əksəriyyəti müsəlman olan ölkə olmaqla Vatikanda, Fransada və digər ölkələrdə xristian abidələrinin bərpasına öz töhfəsini verib. Azərbaycan Vatikanda Müqəddəs Marselin, Müqəddəs Pyotr və Sebastyan katakombalarının bərpasında iştirak edib, Fransada Notr-Dam kilsəsinin bərpasının maliyyələşdirilməsində iştirak edib. Bütün bunlar o deməkdir ki, Azərbaycan həmişə dini tolerantlığı ilə seçilib.

Bununla belə hər kəs bilir ki, ermənilər Azərbaycanın mədəni dəyərlərinə ciddi ziyan vurub, Qarabağda Azərbaycan mədəni irsini dağıdıb, tarixi, mədəni, dini abidələrini məhv edib, bir neçə tarixi muzeyi, 500-dən çox tarix və memarlıq abidəsini, yüz arxeoloji obyekti, 40 min eksponatı olan 22 muzeyi, 9 sarayı, 44 məbədi, 67 məscidi, 4 rəsm qalereyasını və yüzlərlə qədim məqbərə və qalanı yer üzündən silib və mənimsəyib. Onlar dini abidələri sui-istifadə obyektinə çevirmək üçün məscidləri və digər dini obyektləri bilərəkdən donuzxanaya çeviriblər. Bütün dünya birliyi və beynəlxalq təşkilatlar Qarabağı müstəqil ölkə kimi tanımırlar, çünki bu subyekt beynəlxalq hüquqda yoxdur. Bircə Azərbaycanın tarixi ərazisi olan Qarabağ var.

Ermənilərin Qarabağda törətdikləri vəhşiliklərin sayı bitib-tükənən deyil. Ekoloji fəlakətin miqyası da çox böyükdür. 44 günlük müharibənin gedişində ermənilər Şuşanın sıx meşələrini yandırmaq üçün fosfor bombalarından istifadə ediblər və bununla da bütün ekosistemə düzəlməz ziyan vurublar. Jan-Kristof Buisson tarixdən xəbəri olsaydı yazdıqlarına görə utanardı.

Qarabağda, daha doğrusu Laçın yolunda baş verənlər haqqında ermənipərəst, yaxud erməni parasından iştahlananların yazdıqlarını onların obyektiv olmamasına, qərəzinə yozsaq da, erməni katolikosunun dediklərini, yanaşmasını hələlik heç bir söz birləşməsi ilə izah verə bilmədiyimizi də anlatmaq istərdik. Laçın yolunda ”ekoaktivistlərin keçirdiyi aktiya səbəbindən Qarabağda humanitar fəlakətin yaşanması”nı elan etməsi bu şəxsin Tanrıya inamında şübhələrin olduğunu subut edir. Bütün ermənilərin katolikosu II Qaregin Milad təbrikində bəyan edib ki, ”Ermənistanla Qarabağı birləşdirən yeganə yolun bağlanması səbəbindən yaranan çətinliklər qarşısında heç vaxt geri çəkilməyən siz azadlıq və müstəqillik yolunda, tarixi ədalətin təntənəsi naminə inadla mübarizəni davam etdirirsiniz”. II Qareginin bu tərzi bütün inanclı insanlarda ikrah hissi doğurur. Əvvəla, doğru danışmaq Tanrı qatında da savab sayılır, baxmayaraq ki, Qaregin xristiandır, amma Allah ki birdir. O, qarabağlıları ”igid əcdadlarından nümunə götürməyə” səsləməklə əsalində yeni müharibəni təşviq edir, insanları qırğına səsləyir. Bu da din xadiminə yaraşan bir yanaşma deyil.

Gələk ABŞ Konqresinin üzvü Barbara Liyə. Bu qadın konqresmendən Qarabağın xəritədə yerini göstərməyi yox, Qafqazın hansı qitədə olduğunu soruşsanız, yəqin ki, gözlərini döyə-döyə qalacaq. Amma xanım konqresmen Laçın yolundan, ekoaktivistlərin kimliyindən, Qarabağdakı ermənilərin ”dəqiq” sayından, Laçın-Xankəndi yolunda guya ”blokada” səbəbindən evinə gedə bilməyən 270 uşaqdan söhbət açır. Konqresmen qanunverici orqanın üzvüdür, dövlətdə icraedici orqandan sonra hakimiyyətin ikinci qoludur, üstəlik də, qanunlarla işləməyə daha çoc üstünlük verirlər. Qarabağın tarixindən, hansı ölkəyə məxsusluğundan bixəbər xanım Li isə Azərbaycanın dünya ölkələri tərəfindən tanınmış suveren ərazilərini şübhə altına almaqla yanaşı, Qarabağı ayrıca subyekt kimi təqdim etməyə çalışır, separatizmə dəstək verir, qanunsuz hərbi birləşmələrin mövcudluğuna normal yanaşır.

Bir anlığa düşünək ki, ABŞ-ın Texas ştatında separatçılıq baş qaldırıb və əhalisinin əksəriyyəti ispanlardan ibarət bu subyekt tarixi Meksikaya ərazisinə qovuşmaq istəyir. Maraqlıdır, Vaşinqtonun, o cümlədən konqresmenlərin, xüsusilə də Barbara Linin məsələyə münasibəti necə olardı?

Qeyd edək ki, Barbara Li 2023-cü ilin yekun maliyyə ilinə xərclər haqqında qanun layihəsinə Dövlət Departamenti və ABŞ Beynəlxalq İnkişaf Agentliyini Konqresə Qarabağ münaqişəsi səbəbindən yaranan humanitar və bərpa ehtiyaclarını həll etmək üçün yardım strategiyası təqdim etməyə istiqamətləndirən müddəanın daxil edilməsinə səy göstərib. 2023-cü Maliyyə İli Konsolidə Edilmiş Təxsisatlar Aktına iqtisadi inkişafı, enerji müstəqilliyini və demokratiyanı dəstəkləmək üçün Ermənistana 60 milyon dollar ayrılması və Dövlət Katibinin Ermənistan və Azərbaycana təhlükəsizlik yardımı göstərməzdən əvvəl komitələrlə məsləhətləşməsi tələbi də daxildir. Məqalədə xarici mediada qeyd edilmiş faktlardan da görünür ki, ermənilər üçün bütün şər qüvvələr səfərbər olub.

**V.VƏLİYEV**

# Kommunal sahələrdə əhaliyə göstərilən xidmətlərlə bağlı vəziyyət necədir?

**Qarlı hava şəraiti ilə bağlı paytaxt və regionlarda müxtəlif problemlər yaşanıb. Bəs kommunal sahələrdə əhaliyə göstərilən xidmətlərlə bağlı vəziyyət necədir? SİA mövzu ilə bağlı qurumlar arasında sorğu keçirib.**

”Bölgələrdə və paytaxtda əməkdaşlarımız gücləndirilmiş iş rejimində çalışırlar. Axşam saatlarından etibarən çağrı mərkəzimizə qazın təzyiqi ilə bağlı 281 zəng daxil olub”. Bunu SİA-nın sorğusuna cavab olaraq ”Azəriqaz” ASC-nin mətbuat xidmətinin rəhbəri Eldəniz Vəliyev deyib. Onun sözlərinə görə, zənglərdən 57-si təbii qazın olmaması ilə bağlı olub: ”Eyni zamanda, 41 abonent qaz sızması ilə bağlı müraciət quruma müraciət edib. Dərhal əraziyə əməkdaşlarımız göndərilib. Sızmanın aradan qaldırılması istiqamətində tədbirlər görülüb. Bir neçə saat ərzində problem aradan qaldırılıb və təhlükəsizlik təmin edilib”.





Mətbuat katibi sözlərinə davam edərək həmçinin qeyd edib ki, dəm qazından zəhərlənmə halları da baş verib: ”Dəm qazından yüngül zəhərlənmə ilə bağlı 7 müraciət daxil olub. Həmin müraciətlərin bir qismi gecə saatlarında, bir qismi isə hazırda həll olunur. Ümidvarıq ki, bundan sonra qaz təchizatında genişmiqyaslı problemlər olmayacaq. Vətəndaşlardan soyuq hava şəraiti ilə bağlı qaz plitələrinin yandırılmasına və gecə yatarkən onların açıq vəziyyətdə saxlanılmasına yol verməsinlər. Bu cür hallarda qaz sızma, partlayış ola bilər. Ona görə də təhlükəsizlik məqsədilə bu kimi məqamlara diqqət etsinlər. Güclü külək bacalara təsir edə və dəm qazı evə daxil ola bilər. Bu kimi nüanslara ciddi yanaşmaq lazımdır. Gün ərzində quruma genişmiqyaslı problem daxil olmayıb, lokal problem isə müvafiq qaydada operativ şəkildə həll olunub və olunacaq”.



”Qarlı hava şəraiti ilə bağlı bəzi regionlarda elektrik enerjisinin verilməsi zamanı qısamüddətli lokal qəzalar qeydə alınıb”. Bu sözləri SİA-nın sorğusuna cavab olaraq ”Azərişıq” ASC-nin mətbuat xidmətinin rəhbəri Vaqif Aydınoğlu deyib.

Onun sözlərinə görə, gecədən indiki vaxta qədər regionda və paytaxt ərazisində əhaliyə elektrik enerjisinin verilişi ilə bağlı ciddi problemlər yaşanmayıb: ”Bəzi ərazilərdə lokal qəza halları olub. Qəza xidməti tərəfindən dərhal müraciətlərə baxılıb və problem aradan qaldırılıb. Donvurma ilə əlaqədar bəzi qırılmalar ola bilir. Qurumun qəza xidmətinin əməkdaşları 24 saat gücləndirilmiş iş rejimində çalışır. Çağrı mərkəzinə qəza ilə bağlı əhalidən daxil olan zənglər əsasında həmin ərazilərə dərhal əməkdaşlar cəlb edilir”.

”Qurumun ”955” zəng mərkəzinə su borusunun və yaxud sayğacların donması ilə bağlı heç bir müraciət daxil olmayıb”. Bu sözləri SİA-nın sorğusuna cavab olaraq ”Azərsu” ASC-nin İctimaiyyətlə əlaqələr sektorunun rəhbəri Anar Cəbrayıllı deyib. Onun sözlərinə görə, hazırda həm Bakı şəhərində və Abşeron yarımadasında, həm də regionlarda bütün mənbələrdən lazımi həcmdə su götürülür və abonentlər dayanıqlı içməli su ilə təmin olunurlar: ”Azərsu” qarlı günlərdə gücləndirilmiş iş rejimində çalışır. Hər hansı bir qəza və yaxud problem yaranarsa, onun qısa müddətdə və operativ aradan qaldırılması ilə bağlı tədbirlər görüləcək”.



**Ləman Əlizadə**

ANALİTİK + ÖZƏL

# Separatçılar başlarını niyə və necə itiriblər?

*Laçın yolundakı proseslər və Azərbaycanın növbəti qələbə əzmi!*

**Laçın yolu üzərində keçirilən aksiya artıq bir ayına qədəm qoymaq üzrədir və ötən müddət ərzində cərəyan edən hadisələrin hər biri bilavasitə rəsmi Bakının diktəsi altında baş tutur. Daha dəqiq desək, artıq nəticə indidən məlumdur - Azərbaycanın vətəndaşları olan sadə erməniləri zorla orada saxlayan, gah Rusiya sülhməramlılarına qarşı aksiyalara məcbur edən, gah da mitinqlərə cəlb edən Xankəndi separatçılarının baş quldurları öz aralarında belə kəskin qarşıdurmalara gedirlər. Beləliklə, bir-birini tez-tez əvəzləyən olayları sıralama ilə şərh etmək yerinə düşərdi...**





## Araik Arutyunyanın "təyin etdiyi" sözdə "təhlükəsizlik katibi" Vitali Balasanyan Ruben Vardanyanın təhriki və Rusiyadan aldığı sifariş ilə Ararat Melkumyanla əvəzləndi

Qarabağdakı cinayətkar-separatçı rejimin çete başı, Kremlin Qarabağa atdığı və Ermənistanda hakimiyyətə yerləşdirməyə çalışdığı "desatı" Ruben Vardanyanla digər banda təmsilçiləri arasında



yaşanan qarşıdurma "kadr dəyişikliyi" ilə nəticəsini tapdı. Məlum oldu ki, Araik Arutyunyanın "təyin etdiyi" sözdə "təhlükəsizlik katibi" Vitali Balasanyan Ruben Vardanyanın təhriki və Rusiyadan aldığı sifariş ilə Ararat Melkumyanla əvəzləndi. Əslində isə bu fakt növbəti proseslərin daha da tezləşməsinə təkan vermiş oldu. Artıq Qarabağ separatçılarının "iqtidarından-müxalifətinə" keçid alan Vitali Balasanyan öz ətrafında təxminən belə bir mühit yaradıb - gənc yaşlarından azərbaycanlılara qarşı döyüşən, ömrünün əsas hissəsini Qarabağın işğalına həsr edən bir kəs cəmi bir neçə aydır ki, Qarabağa transfer olunan və üç onillik boyunca heç bir iş görməyən bir şəxs tərəfindən, yəni aferist Ruben Vardanyanın tapşırığı ilə kənara atıldı. Bəs bundan sonra nə gözlənilir?

## "Vardanyan layihəsi" əsas olaraq Qarabağ ermənilərinin Azərbaycana inteqrasiyalarına, daha dəqiq desək, rəsmi Bakının tələblərini icra etmələrinə maneələr yaratmalıdır, amma yarada biləcəkmi?

Qondarma və tanınmayan "dqr"in "dövlət naziri" dırnaqarası vəzifəsi baxımından əslində heç bir səlahiyyətə də malik deyil, necə ki, "prezidenti" və digər "nazirləri" kimi. Amma fakt budur ki, İkinci Qarabağ müharibəsindən əvvəl və sonra Araik Arutyunyan öz "hakimiyyətini" məhz Vitali Balasanyanla bölüşdürmüşdü, hətta "dqr"də ikinci şəxs olaraq fəaliyyət göstərirdi. Sadəcə, "dqr"dəki xunta bütövlükdə Rusiyadakı məlum dairələrə bağlı olmasına baxmayaraq, sonrakı proseslərdə Kremlin sifarişi dəyişildi: "dövlət nazirinə" daha böyük "səlahiyyətlər" verildi. Yəni "Vardanyan layihəsi" əsas olaraq Qarabağ ermənilərinin Azərbaycana inteqrasiyalarına, daha dəqiq desək, rəsmi Bakının tələblərini icra etmələrinə maneələr yaratmalıdır, amma yarada biləcəkmi?

*Hazırda isə proseslərin inkişafı iki istiqamətdə davam edir:*

*- ekoaksiyanı davam etdirmək və Qarabağ erməniləri arasındakı ziddiyyətləri daha açığa çıxarmaq. Belə ki, yuxarıda da qeyd edildiyi kimi, artıq Vitali Balasanyan "dqr" xuntasında aşkar müxalifətdə dayanır və Vardanyana qarşı çıxış edir.*

*- Vardanyanı fiziki və ya digər üsullarla məhv etmək - bu amil davamlı olaraq qüvvədədir və Qarabağdakı ermənilər də get-gedə həmin reallığı dərk etməyə başlayıblar ki, onların vəziyyətləri heç də yaxşıya doğru getməyəcək, əksinə daha da ağırlaşacaq. Bütün bunların təməlində dayanan isə məhz Ruben Vardanyan faktorudur!*

Ona görə də bu gün Laçın yolu üzərindəki ekoaksiya gene-gündən öz əhəmiyyətini daha da artırır.

## Separatçı xuntanın fiaskosu

Daha bir fakt budur ki, Qarabağdakı qanunsuz və dırnaqarası hakimiyyət artıq öz fiaskosunu dolayısı ilə də olsa qəbullanmaq üzrədir. Ötən günlərdə Azərbaycanın Qarabağ iqtisadi rayonunun sakininin hərbçilərimizə müraciət edərək ac olmasını və digər ehtiyaclarının olduğunu bildirməsi, ona dərhal



ərzaq, qida, siqaret və s. yardımların göstərilməsi, sonradan isə azuqə payları ilə birlikdə Xankəndiyə yola salınması separatçıların uğradıqları fiaskonun başlanğıc nöqtəsidir. Məhz bu addımın özü də sübut edir ki, Qarabağ iqtisadi rayonunda yaşayan sadə ermənilər qanunsuz hakimiyyət altında yaşamaq istəmirlər və beziblər. Və bu gün Azərbaycan üçün qanunsuzluqlar törədən, dövlət qanunlarımızı qəbul etməyənlər əsas cinayətkarlardırlar, onlar gec-tez Azərbaycan qanunları qarşısında cavab verməli olacaqlar.

## "Qarabağ erməniləri ictimai hərəkatı"nın rəhbəri Artur Ağacanyan: "Mənim əziz qarabağlı ermənilərim - sizə olan təhlükə heç də Azərbaycan xalqından deyil, tanınmayan "dqr" adlı "respublikadan" gəlir"

Bu arada, "Qarabağ erməniləri ictimai hərəkatı"nın rəhbəri Artur Ağacanyanın da Qarabağ ermənisinin Azərbaycan əsgərlərinə sığınması ilə bağlı fikirlərini xatırlatmaq olar. SİTAT: "Qarabağ ermənisi Laçın yolu üzərindən Xankəndiyə keçdi. Bu yaxınlarda Xankəndi sakini azərbaycanlılara yardım üçün müraciət etdi. Azərbaycan tərəfindən ona təxirəsalınmaz yardımlar göstərildi, ona qarşı qayğı ilə yanaşıldı. Ona görə ki, o Azərbaycan şəhəri olan Xankəndinin sakinidir. Mənim əziz qarabağlı ermənilərim - sizə olan təhlükə heç də Azərbaycan xalqından deyil, tanınmayan "dqr" adlı "respublikadan" gəlir. Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə inteqrasiyasına doğru birinci addım atıldı".

## Ermənistanda fəaliyyət göstərən bloger İşxan Verdyan: ""Nəticə aydındır və birmənalıdır - Ermənistan hökuməti sülh istəmir və ona qarşı getmir"

Daha bir reallıq: Ermənistanda fəaliyyət göstərən bloger İşxan Verdyan sosial şəbəkə vasitəsi ilə bildirib ki, Qarabağdakı qanunsuz hərbiləşdirilmiş və "artsaxın milli təhlükəsizlik xidməti" adlı terror təşkilatı azərbaycanlılarla kontakta gedən erməni ilə bağlı gözlənilən reaksiyasını göstərdi - ona qarşı cinayət işi açıldı, istintaq başlandı və faktların saxtalaşdırılmasına start verildi. SİTAT: "İnsanları qorxudan qatil çete üzvləri diqqətlə izləyirlər ki, bir nəfər də olsun erməni azərbaycanlılarla ünsiyyətə belə girmək haqqında hətta düşünməmelidir. Xuntanı maliyyələşdirən rəsmi İrəvan isə bu davranışı müsbət qarşılayır. Ancaq susqun da qalmır. Hakimiyyət nəşrləri onun bütün press-relizlərini birinci səhifəyə çıxarır və bu vasitə ilə bütün Ermənistan əhalisinə çatdırmaq istəyir ki, azərbaycanlılarla olan istənilən kontakt cinayət xarakteri daşıyır, eləcə də "milli təhlükəsizlik xidmətinin" yurudksiyasına altına düşür. Azərbaycanlılarla ünsiyyətə girərkən cinayət məsuliyyəti daşımaq qorxusu (Qarabağda isə öldürülmək-İ.V.) dövlət səviyyəsində bütün ermənilərə aid edilir".

Ermənistanlı bloger bunu əhaliyə qarşı total terror hesab edir və bildirir ki, bir tərəfdən belə bir praktikanı icra etmək, digər tərəfdən isə Ermənistanın sülh istədiyini demək ağlasığmaz absurddur. "Nəticə aydındır və birmənalıdır - Ermənistan hökuməti sülh istəmir və ona qarşı getmir", deyə İşxan Verdyan bildirib.

## Bakı isə artıq Xankəndiyə çox yaxındadır, cəmi 14 kilometr məsafədə!

Beləliklə, fakt budur ki, Qarabağdakı cinayətkar rejim artıq əlini hər şeydən üzüb. Əbəs deyil ki, onlar başlarını itiriblər və hətta Qərbin, Rusiyanın ayrı-ayrı siyasi dairələri hansısa "bəyanatlar" yaymaqla, fəərqli-fərqli antiazərbaycanlı, ya da türkofob fərdlər tivtlər paylaşmaqla Azərbaycanın verdiyi və əzmlə irəlilədiyi qərarlarından geri döndərə bilməyəcək. Bu gün Vardanyan "ərzaq və yanacaq çatışmazlığı" adı altında sadə Qarabağ ermənilərini aclıqla sınağa çəkdirir, talonla ərzaqlar verdirir və s. vasitələrlə "məzlumluq", "əzabkeşlik" obrazını canlandırmağa cəhdlər göstərir. Amma bu da faydasızdır. Hər gen Laçın yolu üzərindən onlarla humanitar yardım maşınları Xankəndiyə doğru istiqamət alır. O cümlədən, Xankəndidən Laçın yoluna, oradan isə Gorusa - Ermənistana Qırmızı xaç cəmiyyətinin maşınları ağır xəstələri müalicəyə daşıyırlar və bu faktları hətta özlərini korluğa qoymağa çalışan bəzi xarici təşkilatlar da yaxşı görürlər. Ona görə də artıq bütün kartlar oynanılıb və separatçı xuntanın, eləcə də Ermənistan rəhbərliyinin dünyanın gözü qarşısında "Leninqrad blokadası" görüntüsünü yaratmaq səyləri də puça çevrilir. Bakı isə artıq Xankəndiyə çox yaxındadır, cəmi 14 kilometr məsafədə!

*Rövşən RƏSULOV*

# “Qərbi Azərbaycan mənim üçün Vətən deməkdir”

Qərbi Azərbaycandan soydaşlarımızın deportasiyası üç mərhələdə aparılıb: 1905-1920-ci illər, 1948-1953-cü illər və 1988-1992-ci illər. Bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, 30 minə yaxın evi dağıdıb və yandırıb, qoca, uşaq və qadınlar da daxil olmaqla 140 min insanı vəhşicəsinə qətlə yetirib, 750 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb. Sonuncu deportasiyada - 1988-ci ildə isə 220 mindən artıq azərbaycanlı erməni vəhşiliyinə tab gətirə bilmədiyindən, doğma yurd-yuvalarını tərk edib.

Qərbi Azərbaycanın Hamamlı rayonunun 1988-ci ildə deportasiyaya uğramış sakinləri Fərhad Qəmbərov və Afidə Əhmədovanın SİA-ya verdiyi müsahibəsini təqdim edirik:






***- Qərbi Azərbaycan sizin üçün nə ifadə edir? Bugünkü gündə "Qərbi Azərbaycan" dedikdə və ya o yerlərdən görüntülər izlədikdə hansı hissləri keçirirsiniz?***

- Vətən.. Biz hal-hazırda burada yaşasaq da, orada doğulub böyümüşük. Ona görə də Qərbi Azərbaycan bizim üçün Vətən deməkdir. Cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdış üçün çağırış etməsi bizim üçün çox böyük önəm daşıyır. Düşünürük ki, bir gün dədə-baba yurdumuzu yenidən görəcəyik.

***- Evinizdən, kəndinizdən didərgin düşdüyünüz anları necə xatırlayırsınız?***

- Ermənilər artıq 1988-ci ilin noyabr ayının əvvəllərindən azərbaycanlılara qarşı soyqırım törətməyə başlamışdılar. Camaatı köçməyə məcbur edirdilər. Deyirdilər ki, gedəndə ancaq şəxsi əşyalarınızı götürüb gedə bilərsiniz. Yəni, mal-qaranı, payız vaxtı toplanmış məhsulları aparmamaq şərtilə məcbur edirdilər ki, hər kəs getsin. Getməyənləri döyüb incidirdilər, zəng edib, ”Niyə hələ də buradasınız? Niyə tez getmirsiniz? Sizin burada yaşamağa haqqınız yoxdur”, deyə xəbərdarlıq edirdilər. Artıq 1988-ci il noyabrın 27-də kəndə hücuma keçdilər. Camaat ayıq olduğu üçün əllərində olan xırda-para silahlarla bu hücumu dəf etdilər. Ermənilər başa düşdü ki, kəndə girmək mümkün deyil. Yəqinki başqa plan hazırlamağa başlayırdılar. Lakin elə oldu ki, dekabrın 7-də zəlzələ oldu. Həmin vaxt ermənilər bizə heç bir maddi, tibbi yardım etmədilər. Ancaq dekabrın 14-də Azərbaycandan vertolyotla həkimlər gəldi. Bizim kənddən 28-ə qədər adam ölmüşdü. Ölüm sayı ona görə az olmuşdu ki, zəlzələ gündüz vaxtı baş vermişdi. Hər kəs səksəkədə olduğu üçün çöllərdə idi, narahat idilər, məktəbdə uşaqlar yox idi. Zəlzələ olanda mən özüm də xəsarət almışdım; burnum, ayağım, qabırğam sınmışdı. General dedi ki, gəl səni xəstəxanaya aparaq. Mən ermənilərin olduğu xəstəxanaya getməkdən imtina etdim. Zəlzələdə də evlər uçmuşdu, hər şey dağılmışdı və məcburiyyət qarşısında qalıb vertolyotla Qazaxa gəldim. Sonra yenidən fevral 5 və ya 6-da evlərin kompensasiyaya alınması, əmək kitabçalarının götürülməsi üçün geri qayıtdım. Həmin vaxt polis rəisi mənə yaxınlaşıb dedi ki, çalış fevralın 24-nə qədər burada adam qalmasın, çünki Sumqayıt hadisələrinin ildönümü ilə əlaqədar kəndə hücum planlaşdırıblar. Bu polis rəisi orada azərbaycanlıların yaxşılığını görmüşdü deyə köməklik etmək istəyirdi. Sonra aprelin əvvəli evlərin sənədləşməsi üçün biz ora gedəndə yenə həmin polis rəisi dedi ki, indi də soyqırımına yaxın hücum planlaşdırılır, ayın 20-nə qədər kənddə heç kim qalmasın. Ən axırıncı dəfə may ayında bizim kənddə polis işləyən Rəhim Daşdəmirovu evinin sənədi üçün gedəndə vurub öldürdülər. Beləcə kəndi boşaltdılar.











***- Heç ağlınıza gələrdimi qonşu kimi yaşadığınız ermənilər bir gün sizə qarşı çönüb, belə bir hadisə törədəcək?***

- Hiss olunurdu ki, onlar bizə ikinci növ adamlar kimi baxırlar. Ancaq müəyyən qədər Sovet qorxusu var idi. Əsasən, onların bizə üz dönməsi Heydər Əliyevin SSRİ KP MK-nın Siyasi Bürosunun üzvlüyündən çıxmasından sonra oldu. Bu hadisədən sonra onlar 180 dərəcə çöndülər və bizə qarşı kobudluqlar başladı. Biz normal şəkildə Bakıya ya da Qarabağa köçməyi təklif edəndə erməni bir polis rəisi müavini gülərək dedi ki, siz ermənilər kompakt yaşayan yerə buraxılmayacaqsınız, necə ki əvvəl ermənilər yaşayıblar, bundan sonra da elə yaşayacaqlar. Həqiqətən də biz qayıdanda gördük ki, dəmiryolundan başqa bütün yollar bağlanıb və Bakıya giriş yoxdur. Ondan sonra qatarla Bakıya gəldik. Camaat məcbur qalıb evlərini dəyişdirirlər ki, burada yerləşə bilsinlər.

***- Kəndiniz yaddaşınızda necə qalıb? Bayramları necə keçirirdiniz? Hansı adət-ənənələriniz var idi?***

- Uşaq vaxtı biz çərşənbələrdə lopa düzəldərdik. Lopanı bir həftə neftin içində saxlayırdıq. Sonra sinfimizdəki bütün oğlanlar dağın başına çıxırdıq. Sırayla hamı o lopanı yandırıb fırlayırdıq. Hələ 2-3 min hündürlükdə dağa təkərlər aparırdıq. Təkərləri yandırıb erməni kəndləri tərəfə yollayırdıq. Hamı da bizə baxırdı. Axırıncı çərşənbədə təzə gəlinlərə yığıncaq edirdilər, bayatılar deyilərdi, küsülülər barışardı. Kənd qaynayırdı, hiss olunurdu ki, burada bayram ab-havası var.

***- Əgər elə bir imkan yaransa, yenidən Qərbi Azərbaycana qayıdıb yaşayırsınız?***

- Əlbəttə qayıdarıq. Orada bizimi ata-babalarımızın, nənələrimizin ruhu var. O qəbirstanlıq çürümüş də olsa, ən azından biz onların qəbirlərinin yerini tanıyırıq. Oradan gələndə böyük oğlum bir yaş yarımlıq, qızım da üç aylıq idi. Onlar nə bilir ki, kənd nədir? Amma biz bilirik, heç olmasa biz gedib orada nənə-babamıza dua oxuyarıq, rahatlıq taparıq.

***- Qarışıqlıq düşməmişdən öncə ermənilərlə münasibətiniz necə idi?***

- Azərbaycanlı dostu olmayan ermənilər bayram günlərində kəndə gəlirdilər ki, biz ancaq sizin bayramı necə keçirdiyinizə baxmaq istəyirik. Onlar süfrəyə dondurma ət qoyurdular, amma bizdə bayram üçün heyvan saxlayırdıq. Bizim şəkərburanı, paxlavanı ermənilər bilmirdilər. Ermənilər öz adlarına keçirmək istəsələr də, İrəvan kətəsi də bizimdir, onlar bizdən görüb-götürüblər. Gəlib görürdülər və deyirdilər ki, siz bayramları bizdən yaxşı keçirirsiniz, sizin səməniniz bizim yolkamızdan daha təbiidir. Yəni, münasibətimiz pis deyildi. Ermənilərin çoxunu Daşnak üzvləri məcbur edirdilər ki, bizə qarşı münasibəti pisləşdirsinlər.

***- Ermənilər Azərbaycan dilini bilirdilər?***

- Türkiyədən gəlmə və Qarabağ erməniləri müəyyən qədər dilimizi başa düşürdülər, danışırdılar. Amma yerli ermənilər yox. Ancaq onların ağsaqqalları etiraf edirdilər ki, 30-cu ilə qədər orada ermənilər az olduğu üçün məcburiyyətdən Azərbaycan dilini öyrənib, bizim dildə danışıblar.

***- Son olaraq, sizi eşidəcəklərini bilsəydiniz, onlara nə demək istərdiniz?***

- Mən düşünürəm ki, onlar peşman olacaqlar. Amma sonrakı peşmançılıq heç vaxt fayda vermir. Ziyanın yarısından dönmək də olar. Yaxşısı budur ki, ağıllarını başına toplasınlar. Əvvəl necə yaşamışıqsa, elə də yaşayaq.

Afidə Əhmədova (Fərhad Qəmbərovun həyat yoldaşı):

***- Kəndiniz necə bir coğrafi mövqeyə malik idi?***

- Kəndimizin çox gözəl coğrafi mövqeyi var idi. Ətrafı dağlarla əhatə olunmuş düzəngah idi. Bütün kənd şəffaf, büllur kimi sularla təmin olunmuşdu. Dərələrdə dovşantopuğu adlanan bir bitki yetişirdi ki, Azərbaycanın hər qarışını gəzmişik, amma onu heç bir yerdə tapmamışıq.

Pəmbək mahalının qarşısından Pəmbək çayı axırdı və Türkiyədən Qazaxa qədər dərələrlə əhatə olunmuşdu. Mahalın adı da dərələrin hər iki tərəfində açan çiçəklərin rəngindən dolayı türk dilində ”pəmbə” sözündən götürülüb. Ona görə o bölgə Pəmbək mahalı adlanıb.

***- Sizcə, biz də ermənilərə onlar kimi cavab verməliyik?***

- Biz ideologiyası xəstə olan ermənilərə nifrət edirik. Bütün dünyada canlı varlıqlara həssas yanaşılır. Həmişə böyüklərimiz bir quzunu qurban kəsərkən onu başqa quzuların görməməsini tövsiyə edirdi. Çünki ikinci bir quzu və ya qoyun onu görsə, gözündən yaş axardı. Ermənilərin bu qədər vəhşilik etməsi onların xislətindən irəli gəlir. Biz isə humanist millətik. Hər cür vəhşiliyi, qəddarlığı gördük. Amma yenə də insanlığa dəyər veririk. Prezidentimizə güvənirik və bilirik ki, biz sülh yolu ilə yerimizə-yurdumuza qayıdacağıq.

***- Əgər ermənilərlə birgə yaşayacağınızı bilsəniz, yenə də qayıtmağa razı olarsınız?***

- 1941-1945 müharibəsində SSRİ ilə faşist Almaniyası arasında nələr oldu, neçə milyon insan qətlə yetirildi. Amma bugünkü gündə onlar düşmən deyil, gediş-gəlişləri var. Biz niyə öz torpağımıza getməyək? Normal insanlarla bir arada ora getməyə də, yaşamağa da, işləməyə də hazıram. 30 ildir o yerlərin qoxusunu heç yerdən ala bilməmişəm.

O torpaqlar bizim haqqımızdır. Dünyanın hər yerindən erməniləri oraya gətirməklə, erməni dilində nələrsə yazıb torpağa basdırmaqla o yerlər onların hesab olunmur. Millət vəkili Əziz Ələkbərlinin kitabında da orada olan kəndlərin, məscidlərin sayı dəqiqliklə əks olunub. Ermənilər dünyaya səs salmaq istəyirlər ki, guya oralar dədə-baba yurdları olub. Xeyr, belə bir şey mümkün deyil. Qərbi Azərbaycan elə bütöv Azərbaycandır, bizim torpaqlarımızdır.

***Ləman Əlizadə***

Monoloq

# Qan qohumluğu gələcək nəslin düşmənidir

## Kimdir günahkar?..

**Mən kimin günahkar olduğunu anlayanda artıq çox gec olacaq. Elə sizin üçün də gec olacaq. Çünki o zaman illərlə xəstəxanalara aparıb-gətirdiyiniz və səhətində heç bir müsbət nəticəni görmədiyiniz övladınız olan mən yetkinlik yaşımda olacağam. İllərlə mənim sağalmağım yolunda çəkdiyiniz əziyyətin, xərcin hədər olduğunu anlayacaqsınız. Mən uşaqkən sağalacağıma hər gün ümid etdiyiniz halda, yeniyetmə yaşıma çatanda qüsurlu halımdan utanıb, xəcalət çəkəcəksiniz.**



Onda mənim işləməyən ayaqlarım, zəif görən gözlərim, yaxud normal olmayan beynim, qanımdakı müxtəlif problemlər sanki "dil" açıb sizə deyəcək: niyə evləndiniz? Sizi evlənməyə kim təhrik etdi? Dünyanın müasirliyindən, səhiyyənin inkişafından, mətbuatın bu qədər maariflǝndirməsindən bixəbər olan ata-analarınızmı? Onlar "biz kənara qız verməmişik, bu adət-ənənələrimizi də davam etdirməliyik",- dedilərmi? Əmi-bibi qızının əmi, bibi oğluyla, dayı-xala qızının dayı, xala oğluyla evlənməsi heç məntiqlə düzgün deyil axı? Onlar bir-birinə bacı-qardaş sayılmırlarmı? Yaxşı, bunları bilməyənlər sizi evləndirərkən siz necə, heç bu izdivaca qarşı çıxdınızmı? Axı ana, ata, siz ikiniz də ali təhsillisiniz. Dünyagörüşü, ali təhsili olmayanlar bu izdivac üçün bir günah daşıyırlarsa, siz iki günah daşıyırsınız. Axı siz qan qohumluğunun mənfi nəticələri barədə bilməmiş olmazdınız. Nə üçün onlara qarşı çıxmadınız? Buna gücünüzmü çatmadı? Nənə-babanıza, valideynlərinizə qarşı çıxa bilmədinizmi? Düzdür, böyüklərə hörmət hər kəsin borcudur. Amma o böyüklər ki, sənə düzgün yol göstərmirlər, onların sözündən çıxmağınızı Allah sizə günah saymazdı. Elə "Qurani-Kərim" də qan qohumluğna qarşı çıxıb.






İndi heç mənim halımdan utanırsınızmı? Məni evdə qoyub qohumlarınızın, qonşularınızın toy ziyafətinə, ad gününə gedərkən nələr çəkdiyimi hiss edirsinizmi? Məni özünüzə yaraşdırmırsınız, hə? Axı məni dünyaya siz gətirmisiniz. Özü də bilərək ki, mən belə doğulacağam: qüsurlu. Sizi evlənməyə təhrik edən babam-nənəm haradadırlar? Onlar sizin üzünüzə baxa bilirlərmi? Mənim bu halımı hər dəfə görərkən hansı hissləri keçirirlər? Nə üçün məni gəzintiyə çıxaranda elə utanırlar. Nə üçün mənim gələcəyimdən söz düşəndə gizli-gizli ağlayırlar? Bunu əvvəldən düşünmək olmazdımı?

Nə üçün mən düzgün olmayan addımlarımla yaşıdlarım arasında xəcalət çəkməliydim? Nə üçün mənim qüsurlu gözlərim kiminsə mənə acımasına səbəb olmalıydı? Qanımdakı problemlərin ömrümə hansısa bir andaca son qoyacağını bilirsinizmi? Ölməsəm, qalsam, kimə lazımam? Məgər mən başqaları kimi məktəbdə müəllim dediklərini normal şəkildə anlayırammı? Məgər mənim əlaçı olmaq üçün yetərincə sağlam orqanizmim varmı?



Axı mən həkim olmaq istərdim. Sizin kimilərlə mübarizə aparıb gələcək nəslin sağlamlığının qeydinə qalmaq üçün. Mən müəllim olmaq istərdim. Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün. Mən də sevib, sevilmək istərdim, ailə qurub, sağlam övladlar sahibi olmaq üçün. Amma bunların hamısı bir arada mümkünmü? Mən həkim, müəllim ola bilsəm belə, sağlam ola bilməyəcəyəm. Ailə qura bilsəm belə, ya övladım olmayacaq, ya da özüm kimi qüsurlu olacaq.

Siz heç övladınızın müvəffəqiyyəti barədə düşünmüsünüzmü? Onu məktəbə-birinci sinfə göndərərkən fərəh hissi keçirmisinizmi? Arxadan baxıb, boyuna qurban, demisinizmi? Yoxsa illərlə başınız xəstə övladınızın müalicəsinə qarışıb? Onun ali məktəbə daxil olmasını necə, təsəvvürlərinizdə canlandırıb, bu sevinci xəyallarda da olsa, yaşamısınızmı? Övlad toyu-qız köçürmə, oğul evləndirmə, gəlin gətirmə barədə neçə, xəyal qurmusunuzmu? Bəs qucağınıza nəvə almaq barədə necə, heç fikirləşmisinizmi? Siz də mənim kimi başqalarından, görün, neçə seçilirsiniz. Bunların hər biri haqqında fikirləşdiyinizi bilirəm. Bütün bunlar sizin ən ümdə arzularınızdır. Lakin artıq gecdir. Baxın, siz səhv addımınızla nə qədər günahlara səbəbsiniz? Həm özünüzə, həm də mənə günah etmisiniz.

Kimdir günahkar? Qan qohumlarının izdivacına razılıq verib, gəncləri buna təhrik edib, sonradan əzab, xəcalət çəkənlər. Kimdir günahkar? Gəlin onu ittiham edək. İttiham edək ki, başqalarına da dərs olsun. Qan qohumluğuna razılıq verənlər mənim kimiləri görüb utansınlar. Mənim kimilərin arzularını ürəklərində qoyduqları üçün xəcalət çəksinlər. Övladlarının qüsurlu övladlarını görəndə günahkar olduqlarını dərk etsinlər. Gözlərini açıb müasir dünyaya yaxşı-yaxşı baxıb, radio-televiziyanın, qəzet və jurnalların qan qohumluğu ilə bağlı "bar-bar bağıran" verilişlərini dinləsinlər, yazılarını oxusunlar. Qan qohumluğuna, yox, desinlər. Bunun gələcək nəsillərin inkişafına, sağlamlığına mənfi təsiri olduğunu dərk etsinlər.

***Mətanət MƏMMƏDOVA***

# Gənclərə nümunə olan ömür yolu...

## *Sevda Ağazadənin həyatından bir epizod*

**Dilimizin inkişafında ədəbi simaların nitq üzrə tədqiqatlarının aparılması zəruridir. Azərbaycanda jurnalist məktəbinin mühüm tərkib hissəsi olan əməkdar artist Sevda xanım Ağazadənin yaradıcılığının öyrənilməsi ciddi aktuallıq kəsb edir. Sadəliyi və sadə olduğu qədər dərin zəkası, düşüncə qabiliyyəti ilə biz gənclərə nümunə olan Sevda xanımın ömür yolunu həyəcandan titrəyən əlimlə vərəqləməyə çalışdım.**

5 yaşında ikən aparıcılığı bəyənib, seçən Sevda xanımın səsi sonralar televiziyadan gəlir. Həyatının ən gözəl çağını demək olar ki, bütün ömrünü o, televiziyaya həsr edir.`Taleyinin 40 ili mili televiziya ilə bağlı olan Sevda xanım Ağazadə 1984-cü ildə 300 nəfərin içərisindən seçilib radioya gələrək günəş kimi parladı. 3 aydan sonra onun səsini bəyənib televiziyaya dəvət edirlər. 1985-ci il martın 10-da ilk dəfə televiziyaya çıxaraq, 15 il xəbərlər oxuyan əməkdar artist, mülayim xasiyyətli, ağbəniz Sevda xanım Ağazadənin ecazkar səsi hamını heyran edir. "Həyatın bir anı", "Kinoalmanax" və s. verilişləri ilə ən əsası gözəl məlahətli səsi, nitqi,



gözəlliyi ilə tamaşaçını böyük sevinclə ekrana yığmağı bacardı. Bu səsin ahəngində xəyala dalır, gah kövrəlir, gah da sevinirsən. Bu məlahətli səsdən ayrıla bilmirsən. Bu həlim səsin sahibi hamının çox sevdiyi gözəl Sevda xanım anamı həmişə cəlb edirdi. Onun apardığı verilişi səbirsizliklə gözləyirdi.

Mən taleyimdən çox razıyam! Bu gün Teleradio Akademiyasında təhsil alaraq, Sevda xanımdan nitq mədəniyyəti dərsi alıram. Sevda xanım çox vaxt özü tələbələrinin arasında olmağa, onların qayğı və problemləri ilə maraqlanmağa çalışır. Bütün həyatı boyu gəncliyə daim diqqət və qayğı göstərən, gəncliyi özünə yaxın dost bilən Sevda xanım Ağazadənin həyatından bu adicə bir epizoddur.

Böyük müəllimimizdən bir məktəb keçdiyimə görə Allaha minnətdaram bizi daha da yeni layihələrə cəlb etdiyinə görə ona hədsiz sevgimi çatdırıram. Sevda xanımdan eşitmişəm dostları gəncdir məndə bu sıralara qoşulmaq arzusu ilə. Sonda demək istəyirəm: Sevda xanım biz gənclərin Sizə hədsiz ehtiyacı var, Sizin kimi qayğıkeş müəllimimiz olduğuna görə fəxr edirik.

***Günel Məlikli,***
***Azərbaycan TV və Radio verilişləri QSC-nin Teleradio Akademiyasının tələbəsi***

# Müasir musiqinin ən parlaq nümayəndəsi olan görkəmli bəstəkar



Ötən əsrin 90-cı illərində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil aldığımız illərdə bir çox tanınmış müəllimlərdən, sənətkarlardan dərs almış, onların sayəsində musiqinin sirlərinə bələd olmuşuq. Həmin dövrdə bizə dərs deyən müəllimlərdən biri də Firəngiz xanım Əlizadədir. 1990-cı illərdə Firəngiz xanım yaradıcılıqla məşğul olmaqla yanaşı, həm də gözəl müəllim kimi maraqlı mühazirələr aparır, pedaqoji işlə məşğul olurdu. Firəngiz xanım bizə "Orkestr musiqisi tarixi"ndən mühazirələr oxuyurdu. Bu maraqlı, rəngarəng, hərtərəfli mühazirələrdə geniş dünyagörüşü ilə yanaşı, gözəl nitq qabiliyyəti olan Firəngiz xanımın geniş erudisiyası, savadı bizi heyran edirdi. Təbiidir ki, Qara Qarayev kimi möhtəşəm bəstəkarın yetirməsi olan Firəngiz xanım bütün müasir dünya musiqisindən xəbərdar idi. Klassik bəstəkarların əsərləri ilə yanaşı o, daim mühazirələrdə bizim diqqətimizi müasir bəstəkarlara yönəldir, onların musiqisini həm disklərdə səsləndirir, həm də özü fortepianoda ifa edirdi. Məhz bu məşğələlər, onun mühazirə və seminarları sayəsində biz XX əsr dünya musiqisinin tanınmış bəstəkarları - Arnold Şönberq, Alban Berq, Anton Vebern, Paul Hindemit, Bela Bartokun yaradıcılığı ilə yaxından tanış olmaq imkanı əldə etdik.

Firəngiz Əlizadə dünya səviyyəsində tanınan bir bəstəkar, Qara Qarayev məktəbinin davamçısıdır. Bu ziyalı xanım 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının Sədridir. Onun fəaliyyəti və yaradıcılığı layiqincə qiymətləndirilmiş, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Xalq artisti, AMEA-nın müxbir üzvü, UNESCO-nun "Sülh artisti" adına layiq görülmüş, "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmişdir. 1998-ci ildə Firəngiz xanım professor elmi adına layiq görülmüşdür. Bəstəkar "Uğur", "Zirvə" mükafatı, AMEA-nın "Üzeyir Hacıbəyli" mükafatı, "The Frist" mükafatı ilə təltif edilmişdir. 2019-cu ildə "Nəsimi ilahiləri" ("Nasimi Passion") əsərinə görə dünyanın ən nüfuzlu təşkilatlarından biri olan "Aga Khan Music Award - 2019" (creation) Beynəlxalq Musiqi mükafatına layiq görülmüşdür. 2022-ci ilin may ayında isə Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Firəngiz Əlizadə möhtərəm Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Firəngiz xanım respublikanın musiqi üzrə bütün ictimai tədbirlərinin keçirilməsində böyük fəaliyyət göstərir. O, Heydər Əliyev Fondunun rəhbərliyi ilə keçirilən bütün "Muğam Aləmi" Beynəlxalq Musiqi Festivallarına rəhbərlik etmişdir. F.Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının layihəsi əsasında Şəki şəhərində keçirilən "İpək yolu" Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri kimi, eləcə də "Üzeyir dünyası" layihəsinin koordinatoru və baş redaktoru kimi fəaliyyət göstərir. Firəngiz xanımın ilk növbədə ictimai fəaliyyətini vurğulamağımız heç də təsadüfi deyildir. Azərbaycanın musiqi-ictimai həyatında bu qədər fəal və məhsuldar çalışaraq fəaliyyət göstərən başqa bir bəstəkar tapmaq çox çətindir. Firəngiz xanım "Azərbaycan muğam ensiklopediyası"nın, eləcə də Heydər Əliyev Fondunun nəşr etdiyi "Üzeyir dünyası" layihəsinin koordinatoru və baş redaktorudur. O, 1986-1991-ci illərdə Bakıda ilk dəfə keçirilən "Müasir Musiqi Festivalı"nın təşkilatçılarından biri olmuşdur.

Firəngiz xanımın yaradıcılıq tərcümeyihalının bəzi səhifələri onun xarici ölkələrdəki fəaliyyəti ilə bağlıdır. 1992-1998-ci illərdə bəstəkar Mersin Opera və Balet Teatrında və Mersin Konservatoriyasında çalışmışdır. 1999-2007-ci illərdə Almaniya Berlin İncəsənət Akademiyasında bəstəkar, pianoçu və dirijor kimi fəaliyyət göstərmişdir.

Firəngiz xanım həm də bacarıqlı musiqişünas-alimdir. O, 1994-cü ildə "Azərbaycan bəstəkarlarının simfonik musiqisində orkestr üslubunun formalaşması" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. 1998-ci ildə Firəngiz Əlizadənin "Azərbaycanın simfonik musiqisi" adı monoqrafiyası nəşr edilib.

Firəngiz xanım gözəl nitq qabiliyyətinə malik natiq və mühazirəçidir. 2013-cü ildə onun Avropada - Almaniyanın Berlin şəhərində keçirdiyi ustad dərslərinə dünyanın müxtəlif ölkələrindən - ABŞ, İngiltərə, Fransa, Çexiya, Polşa, İsraildən bir sıra gənc bəstəkarlar toplaşmışdılar. Bu ustad dərsinə olan dəvətnamədə Firəngiz xanımın adı "müasir musiqinin ən parlaq nümayəndəsi olan görkəmli bəstəkar" kimi qeyd edilmişdi.

Dünya musiqiçiləri Firəngiz xanımın yaradıcılığını müxtəlif obrazlı ifadələrlə səciyyələndirirlər. Bəziləri onu Qərbdə müasir klassik musiqi sahəsində böyük uğurlar qazanmış müsəlman aləminin yeganə nümayəndəsi adlandırırlar (Doktor Hans Sikorski). Firəngiz xanımın adı XX əsr musiqisinə böyük yeniliklər gətirmiş A.Şönberq, A.Berq, C.Keydj, O.Messian, D.Şostakoviç, V.Lyutoslavski kimi bəstəkarlarla bir sırada çəkilir. Firəngiz xanımın əsərləri dünyanın ən tanınmış ifaçıları - Mstislav Rostropoviç, Hillari Hahn, Yo-Yo Ma, Evelin Qlenni, Yulius Berger, eləcə də ən məşhur orkestr və ansambllar tərəfindən ifa edilir.

Bəstəkarın yaradıcılığında iki aləm - Şərq və Qərb qovuşaraq uzlaşır. Firəngiz xanımın yaradıcılığının özünəməxsusluğu ondadır ki, bəstəkarın musiqisi qədim muğam sənəti ilə müasir bəstəkarlıq texnikasının kəsişməsində yaranmışdır. 1979-cu ildə yaranmış "Habilsayağı" əsəri buna parlaq nümunədir. Kamança ustası, istedadlı ifaçı Habil Əliyevin çalğısından ruhlanan bəstəkar Qərb aləti olan violonçeli sanki kamança kimi danışdırır. Bəstəkarın məşhur "Kronos" kvarteti üçün "Muğamsayağı" əsəri "Habilsayağı"nın ənənələrini davam etdirir. "Ağ atlı oğlan haqqında əfsanə" rok-operasında isə (libretto şair Dilsuz Mustafayevə məxsusdur) muğam intonasiyaları estrada musiqi ritmləri ilə birləşir.

F.Əlizadənin Amsterdamda keçirilən III Beynəlxalq Flamenko festivalı üçün bəstələdiyi "Muğ-flamenco" əsəri xanəndə, flamenko ifaçısı və ansambl üçün nəzərdə tutulmuşdur. Flamenko və muğamın sintez edildiyi bu kompozisiyada tar, xanəndə partiyası və qəzəlxan, şair Əliağa Vahidin "Ey gül, sənə qəlbimdə məhəbbət yenə vardır..." qəzəli istifadə edilmişdir.

2001-ci ildə Almaniyada yaşayan bəstəkarın burada yaranıb ərsəyə gələn "Bayatılar" əsəri Azərbaycan musiqisində müşayiətsiz vokal kvartet janrının ilk nümunəsidir.

"Gottes ist der Orient" əsərinin premyerası 28 may 2000-ci ildə - bəstəkarın ad günündə Almaniyanın Köln şəhərində keçirilmişdir. Avropada (Almaniya, İsveç, Danimarka) dəfələrlə ifa olunduqdan sonra 2013-cü ildə V.Şapiro (dirijor) tərəfindən ABŞ-ın Nyu-York şəhərində ilk dəfə təqdim olunmuşdur. Azərbaycan və alman dilində bəstələnən bu kantatada bəstəkar Höte və Nizaminin poeziyasına istinad etmişdir.

F.Əlizadə Azərbaycan klassik poeziyasının vurğunudur. "Nasimi passion" kimi orijinal əsərində bəstəkar mədəniyyətlərin dialoqu ideyasını həyata keçirərək, böyük şairin iztirablarını əks etdirmişdir. Nəsimi poeziyası ilk dəfə bəstəkarı "Zikr" əsərində (1994) maraqlandırmışdır. Sonra bəstəkar Nəsimi ilə bağlı "Dərviş" septetini yaradır. Əsərdə violin, viola və violonçel alətləri ilə yanaşı, həm də milli musiqi alətləri - ney, tütək, qoşanağara, qanun səsləndirilir. Bəstəkarın bu silsilədən olan "Nasimi passion"u Azərbaycan dilində yazılmış ilk passiondur. Bu əsər "Amsterdam Royal Concertgebow" mədəniyyət təşkilatının sifarişi ilə yaranmışdır. "Nasimi passion"a görə F.Əlizadə 2019-cu ildə Portuqaliyanın paytaxtı Lissabonda "Aqa Khan Foundation" Beynəlxalq fondunun ilk dəfə olaraq musiqi sahəsində təsis etdiyi "Aga Khan Music Award" mükafatına layiq görülmüşdür. "Nasimi passion" əsəri sonradan səhnələşdirilərək, vokal-xoreoqrafik poema kimi səslənmişdir və 2019-cu ilin sonunda "Nəsimi ili"nə yekun vurmuşdur.

Bəstəkarın ilk baleti olan "Boş beşik" Türkiyədə Mersin Opera və Balet Teatrının binasının açılış mərasimi üçün xüsusi sifarişlə bəstələnmişdir. Alleqorik xarakter daşıyan bu baletdə (türk yazıçısı Nicat Cümənin eyniadlı poeması əsasında) fəlsəfi ideyalar, insanla təbiətin vəhdəti verilir.

F.Əlizadənin kamera-instrumental əsərlərinin musiqisi əsasında baletlərin yaradılaraq səhnə təcəssümü alması artıq onun yaradıcılığı üçün bir ənənəyə çevrilmişdir. Amerikada bəstəkarın "Muğamsayağı" əsərinin musiqisi əsasında elektron effektlərlə işlənilmiş "Song of Azerbaijan" balet kompozisiyası təqdim olunmuşdur.

"Abşeron" kvinteti əsərinin musiqisi üzərində müasir texnologiyalara əsaslanan "Kronos" kvarteti və müəllifin ifasında "Du Don de Sol?" ("Günəş haradadır?") baleti dünyanın bir çox şəhərlərində səsləndirilmişdir. 2000-ci ildə Berlin İncəsənət Akademiyasının səhnəsində təqdim olunan "Ştadt-Graniza" ("Şəhər-sərhəd") baletində Xeyir və Şərin qarşılaşması ideyası incəsənətin əbədi mövzusu üç simvolik obrazın - Kişi, Qadın və İblisin obrazları üzərində açılır.

Onun dünya şöhrətli violonçel ifaçısı M.Rostropoviçə həsr etdiyi və 2005-ci ildə Parisdə keçirilən M.Rostropoviç adına VIII Beynəlxalq müsabiqədə ilk dəfə ifa olunan solo violonçel üçün "Oyan!" əsərinin musiqisi əsasında mono-balet Kanadanın Toronto şəhərində Ağa Khan Muzeyində "Saşar Zərif Dans" qrupunun ifasında təqdim olunmuşdur. Bəstəkarın "One"("Tənha") baleti Helsinki truppasının daimi repertuarına daxil edilmişdir.

İlk adı "Qarabağnamə" olan "İntizar" operası AMEA-nın həqiqi üzvü, professor Nərgiz Paşayevanın librettosu əsasında yazılaraq, Qarabağ mövzusunu, xalqın faciəni canlandırır. "İntizar" müasir üslubda bir səhnə əsəridir və burada maqnitofon yazıları, elektron musiqinin imkanlarından təsviri vasitə kimi istifadə edilmişdir. Bu opera Azərbaycan operasının ən gözəl ənənələrini davam etdirir. Eyni zamanda operada XX əsr bəstəkarı Arnold Şönberqdən başlamış müasir dünya musiqisini təmsil edən bir sıra digər bəstəkarların ənənələri də öz davamını tapır. 2009-cu ildə Azərbaycan Bəstəkarlar İttifaqının 75 illiyinə həsr olunmuş Beynəlxalq Musiqi Festivalında Heydər Əliyev Sarayının səhnəsində bu əsərin konsert ifası da nümayiş etdirilir.

2007-ci ildə qədim Romanın möhtəşəm Müasir İncəsənət Mərkəzində F.Əlizadənin "Al-Kamandjati" ("Violin çaları") musiqili dram tamaşası nümayiş etdirilir. Tamaşa real hadisələrə əsaslanır. Tamaşanın ssenari müəllifi israilli jurnalist Amira Hass həm də iştirakçıdır.

2011-ci ildə Firəngiz Əlizadə Amerika "Houston Qrand Opera"nın təklifi və sifarişi ilə "Sənin adın Dənizdir" operasını bəstələyir. Bu operanın librettosunu da bəstəkar özü yazmışdır. Opera incəsənətin əbədi mövzusuna - məhəbbətin tərənnümünə həsr olunmuşdur.

Firəngiz xanım yaradıcılığının müdriklik çağındadır. O, yenə yaradıcılıq axtarışlarındadır, yenə gənclik şövqü ilə işləyir. 2022-ci il dünya şöhrətli bəstəkar Firəngiz Əlizadənin 75 illiyi münasibətilə əlamətdar oldu. Bununla əlaqədar olaraq, F.Əlizadənin yubileyinə həsr edilmiş silsilə tədbirlər keçirilmişdir. Dünyanın bir çox ölkərindən başlayaraq keçirilən bu tədbirlərdə F.Əlizadənin yaradıcılıq nailiyyətləri işıqlandırılmış və görkəmli bəstəkarın əsərləri səsləndirilmişdir.

Firəngiz xanımın hər yeni əsəri Azərbaycan mədəniyyətinin yeni uğurudur.

Bəstəkarın yubileyinə həsr edilmiş musiqi festivalında yeni bir əsəri - "Nizami Cosmology" ("Nizami fəzası") Azərbaycanda ilk dəfə səslənmişdir. Böyük simfonik orkestr və elektron səslər üçün yazılmış "Nizami Cosmology" adlı misteriya Nizami mövzusu ilə bağlı irihəcmli əsərlərdəndir. Xarici musiqi tənqidçiləri "Nizami Cosmology" əsərini A.Skryabinin "Prometey" və "İlahi poema" əsərləri ilə müqayisə edirlər. Eyni zamanda F.Əlizadənin orkestr üslubu XX əsr müasir musiqi sənətinin nümayəndəsi olan fransız əsilli Amerika bəstəkarı Edvard Varezin ənənəsini davam etdirir.

Firəngiz Əlizadənin zəngin yaradıcılıq irsini məqalənin hüdudları çərçivəsində işıqlandırmaq mümkün deyildir. Firəngiz xanım Azərbaycan musiqi mədəniyyətinin təşəkkülü və inkişafında, musiqimizin dünyaya tanıdılmasında müəllimi Qara Qarayevin ənənələrini layiqincə davam etdirən bir sənətkardır. Dünya şöhrətli bəstəkarımıza yaradıcılıqda yeni zirvələri fəth etməyi arzulayır və daim yazıb yaradan, sənətinin aşiqi olan Firəngiz xanımla bağlı məqaləni onun yubiley tədbirində səslənən fikirlə tamamlamaq istərdik: "Firəngiz Əlizadə türk-müsəlman dünyasının Avropanı fəth etmiş ən dəyərli bəstəkarlarından biridir. O, Azərbaycan motivini və fəlsəfəsini Qərb musiqisinin dili ilə dünya ictimaiyyətinə çatdırmaqdadır. Firəngiz Əlizadə Qərbdə Azərbaycan mədəniyyətinin təbliği istiqamətində əhəmiyyətli işlərə imza atmaqla yanaşı, Qərb ölkələrində yeni növ mədəniyyətin - Şərq ağırlıqlı Qərb mədəniyyətinin formalaşmasında iştirak edən nadir bəstəkarlardan biridir".

***Aytən Babayeva,***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

# Nənə gedir, bacı gəlir...



**Tarix də, zaman da sübut edib ki, qonşuluğumuzdakı qonşuluqdan kənar olmuşlar nə vaxt ki, dara düşürlər, bizdə bir atalar misalında deyildiyi kimi, aşığın sözü qurtaranda "neylim, neylim" deyər, bunun misalı ermənilərin də əlləri hər yandan üzüləndə göz yaşlarına üstünlük verirlər. Düşürlər dünyanın canına, saxta göz yaşlarını axıtmaqla regionumuzda qalmaqal yaratmağa məqsədli olanları dartıb gətirirlər ki, gəlin, baxın, görün, biz nə gündəyik.**

Maraqlıdır, Ermənistanın baş naziri Nikol Paşinyan və onun yan-yörəsindəki törtöküntü 44 günlük müharibə zamanı üz tutmadıqları qapı, zəng vurmadıqları ünvan qalmadı. Kömək üçün əl açdılar, diləndilər, ağladılar, qürurlarından keçdilər, saatlarla telefon başında və ya qapı ağzında gözləməli oldular ki, görək bizə nə zaman nə kimi cavab verirlər. Xüsusi qeyd edim ki, bunlar yalnız kişi cinsindən olan insanlara ünvanlanırdı.

Müharibədən sonra artıq kişilərdən haray olmadığını görən həmin bu yığnaq başladı bacılara. Dedi bəlkə bizə bacılar kömək edər. Üz tutdular Nensi "nənəyə". Vurğulayım ki, ABŞ Konqresinin Aşağı Palatasının (Nümayəndələr Palatası) 82 yaşlı sədri Nensi Pelosi ermənilərin saxta tarixinin beynəlxalq ictimaiyyətə sırınması uğrunda mübarizədə aparıcı qüvvədir. Kişilərdən əlləri üzülən erməni yığnağı ötən il üz tutdu Nensi "nənəyə". Dedilər bir ayağın burdadır, bir ayağın o tərəfdə. Bəlkə bu son anlarında bir də yerindən tərpənəsən, ən azından gündəm olarsan, biz də bundan faydalanarıq. Beləliklə yaşlı qadını çəkib gətirdilər Ermənistana. Nensi "nənə" də nə etsin. Gözü doymur da, həyat da, vəzifə də şirindir axı. Oradakı erməni seçicilərindən səs qoparmaq qarşılığında sentyabrın 17-də İrəvana səfərə gəldi və saxta erməni kompleksini ziyarət etdi. Həm sə necə, xeyli göz yaşı axıtdı. Lakin bu göz yaşlarının hansı səbəblərdən axdığını bir özü, bir də Allahı bilir. Çünki orada ağlamalı bir şey yox idi. Ağladınmı, deməli, Allahını erməni tarixini bildiyin kimi tanıyırsan.

Nə isə, Nensi ağladı, bu da ermənilərin ürəyincə oldu. Düzdür, bu göz yaşları ilə dünyaya yenə də saxta bir gündəm sırımalı oldular. Lakin çox təəssüf ki, dünyanın yarıdan çoxu saxtalığın da, həqiqətin də artıq kimin tərəfində olduğunu yaxşı bilməkdədir. Bütün bunlar 10 noyabr Bəyannaməsindəki öhdəliklərdən boyunqaçırmaya xidmət etsə də, lakin Nensi "nənə" həqiqətən də əsl siyasətçi olsaydı, İrəvanda üzərində dayandığı torpağın kimə məxsus olduğunu araşdırıb, sonra o torpaq üzərinə göz yaşı tökərdi. Araşdırsaydı, bilərdi və görərdi ki, İrəvan qədim Azərbaycan torpağıdır. Ermənilər bu torpaqlara sığınıblar. Sığındıqca da, " qoy özünə yer edim, gör sənə edim" misalı yerlərini genişləndirmək arzusu ilə yaşayıblar və buna zamanla nail olublar. Bizdən bir-bir qəzadan, rayondan, şəhərdən, kənddən alaraq özlərinə Ermənistan yaradıblar. 44 gündə sonradan işğal etdikləri torpaqları geri aldıq, lakin hələ də erməni işğalı altında olan qədim ərazilərimiz var. Hansı ki, o torpaqlar vaxtilə onlara pay, hədiyyə verilib.

Görünür, çıxış yolunu qadınlarda görən yığnaq Nensi "nənənin" gəlişindən və bu gəlişin nəticəsindən razı qalmayıb. Yeni bir qadına üz tutub. Düşünüb ki, Nensi yaşlı idi, bu dəfə ondan bir az cavan bacılarından biirnə üz tutsun. Bu da olub fransız spiker Yael Braun-Pive. Görün bu bacılarına nə deyiblər ki, bacının Milad bayramı zamanı canına qor dolub. Bilməyib ki, bayram haradan gəlib, haraya gedib. Özünün mətbuata açıqlamasından: "Milad bayramı zamanı fikrim ermənilərə yönəlib, onlara ümid və sülh arzulayıram. Fransa Milli Assambleyasının dəstəyini bir daha ifadə etmək üçün gələn həftə Ermənistana gələcəm".

"Hörmətli" Yael Braun-Pive, gəlməyinə gəl, görünür, səndən əl çəkməyən çox olub. Gəl, özün bilərsən. Lakin Miladda çox nahaq fikrin qalıb ermənilərin yanında, çox nahaq. Çünki regionda hazırda sülh şəraiti hökm sürür, sənə hansı məlumatın verilməsinə baxmayaraq. Qaldı ermənilərə ümid arzulamağına, məncə ta ümiddən keçib. Sən olara ağıllı bir seçim arzulasaydın, bu "miskin" xalqı daha çox düşünmüş olardın. Səninkimilər Ermənistanda yaşayan insanların düşmənisiniz, bilirsənmi? Ümid verməklə, göz yaşı tökməklə, fikirlərini çəkməklə iş bitmir. Gəl, sən də gəl, get Xankəndinə. O ürəyinin qubarına çevrilən bacılarınla görüş. Lakin Allahın varsa, bu dəfə o insanların istəyindən danış, bir qrup yığnağın yox.

Bir də, Xankəndinə yolun düşsə, yanındakıları and ver inandığınız nədir ona, sənə desinlər, o torpaq kimə məxsusdur. Bunu çox gözəl bilsəniz də, bir daha xatırlamağınız məncə Fransadan durub o qədər yol qət edib Ermənistana gəlməyinizin əsassız olduğunu bəlkə anladar yenidən.

Bəli, nənə gedir, bacı gəlir... Qoy gəlsinlər görək, kişilərin görə bilmədiyi işləri bu nənələr və bacılar görə biləcəkmi?..

***Mətanət Məmmədova***




# Tehran rejimi onlarla jurnalisti həbs edib

## KİV nümayəndələrinə qarşı təqiblər və repressiyalar amansızlıqla davam edir



**İranda baş verən kütləvi etirazlarda Tehran rejiminin vətəndaşlara qarşı qəddar davranışları davam edir. Artıq hazırkı dövrə qədər onlarla insan edam edilib və yüzlərlə şəxsə qarşı edam hökmlərinin icrası ilə bağlı qərarlar qəbul olunmaqdadır. Müxtəlif şəhərlərə SEPAH və BƏSİC silahlı qüvvələrinin ağır texnikaları yürdülür, həmin vasitələrlə xalqa qarşı divan tutulur.**

### Artıq öz sözlərini deyən bir sıra jurnalistlər də var ki, onlar edam hökmlərinə, yaxud uzunmüddətli həbslərə məruz qoyulublar




Maraqlıdır ki, belə bir situasiyada öz vəzifə borclarını verən, hadisələri işıqlandıran jurnalistlər, blogerlər də əsas hədəf obyektlərinə çevriliblər. Düzdür, teokratik rejimin əsas təbliğat qüvvəsi olan hökumət mediaları hər vəchlə iğtişaşlarda sadə xalqı ittiham edən süjetlər hazırlayıb, qəzetlərdə yazı və məqalələr versələr də, müxalifyönlü media təmsilçiləri informasiya blokadasını yararaq dünyaya əsl həqiqətləri təqdim edirlər. Məhz bu faktdan qorxan, ehtiyat edən molla rejimi həmin şəxsləri izləyir, təqib və təhdidlərə məruz qoyur, əllərinə düşən fürsətlərdə isə dərhal həbs edərək zindanlara atırlar. Artıq öz sözlərini deyən bir sıra jurnalistlər də var ki, onlar edam hökmünə, yaxud uzunmüddətli həbsə məruz qoyulublar.

### Statistika - İran jurnalistlərin ən çox həbs olunduğu ölkələr siyahısında birinci yeri tutur

Media təmsilçiləri ilə bağlı göstərilən statistik rəqəmlər də şkalaları aşmaqdadır. Əldə edilən məlumatlara və insan haqları təşkilatlarının təqdim etdiklərinə görə, İranda davam edən 110 günlük etiraz aksiyaları zamanı 73 jurnalist həbs edilib. Həbslərə məruz qalan media təmsilçilərinin 38-i jurnalist, 25-i əyalət müxbirləri və 10 nəfəri isə foto və video reportyorlardırlar.

### Repressiyalara məruz qalan jurnalistlər arasında İran hakimiyyətinə yaxın bir neçə media orqanının, o cümlədən "Şərq" qəzetinin əməkdaşlarının da adları hallanmaqdadır

Daha bir maraqlı fakt budur ki, hətta Tehran rejiminə mənsub olan KİV təmsilçiləri də zaman-zaman hədəfə alınırlar. Belə ki, onların hadisələri işıqlandırdıqları zaman əsl reallıqları görmələri və polisin, ordunun qəddarlıqlarını, amansızlıqlarını üzə çıxarmaları sonradan mövqelərinin dəyişməsinə, etirazçı xalqın səbəb olur. Misal üçün, tutulan və sonradan repressiyalara məruz qalan jurnalistlər arasında İran hakimiyyətinə yaxın bir neçə media orqanının, o cümlədən "Şərq" qəzetinin əməkdaşlarının da adları hallanmaqdadır. Əbəs deyil ki, bir neçə gün öncə Jurnalistləri Müdafiə Komitəsi bəyanat yayaraq Tehran rejiminin onlarla jurnalisi peşə fəaliyyətinə görə həbs etməsini pisləyib. Jurnalistlərin Müdafiəsi Komitəsi illik hesabatında bildirib ki, İran jurnalistlərin ən çox həbs olunduğu ölkələr siyahısında birinci yeri tutur.

Qeyd edək ki, İrandakı etirazlar səngimir və ölkənin demək olar ki, bütün bölgələrində azadlıq, sosial bərabərlik, qadın azadlıqları və s. tələblər kontekstlərində şüarlar səsləndirilir, teokratik rejimin idarəçiliyinə qarşı çıxışlar artır. Artıq dünyanın bir sıra aparıcı analitik mərkəzləri də belə bir proqnozlarla çıxış edirlər ki, İranın idarəçilik mexanizmi laxlamağa başlayıb.

***Rövşən RƏSULOV***

# Tariximizin 32 illik "Səs"i

**Yanvarın 11-də Azərbaycan mətbuatının tarixində xüsusi yeri olan "Səs" qəzetinin 32 yaşı tamam olur. Azərbaycanın müstəqilliyini bərpa etməsindən 9 ay əvvəl fəaliyyətə başlayan "Səs" qəzetinin yaranma zərurəti və keçdiyi yolu necə xarakterizə etmək olar? Keçən 32 ildə qəzet öz fəaliyyətini necə qurub, cəmiyyətdə hansı imici qazanıb? Yazımızda bu məsələlərə aydınlıq gətirməyə çalışacağıq.**

"Səs" qəzeti dövlətçiliyimiz üçün çətin sınaqların başladığı bir dövrdə ərsəyə gəldi. O dövrdə respublikada ictimai-siyasi durum olduqca gərgin idi, hakimiyyət uğrunda amansız mübarizələr gedirdi, ölkəmiz Ermənistanın işğal və soyqırım təcavüzünə məruz qalmışdı, yüzminlərlə qaçqın-köçkün öz doğma torpaqlarından didərgin düşmüşdü. Ölkədə ağır sosial-iqtisadi durum hökm sürürdü. Mətbuata güclü senzura var idi. Belə bir çətin dövrdə müstəqil qəzetin fəaliyyətə başlaması çox çətin bir iş idi. Bu iş böyük cəsarət və risk tələb edirdi. Lakin qəzetin yaradıcıları bu işin altına girdilər.

Beləliklə, "Səs" ictimai-siyasi qəzeti 1990-cı ilin noyabrında "Əlincə" Xeyriyyə Cəmiyyətinin orqanı olaraq qeydiyyatdan keçdi, 1991-ci yanvarın 11-də dərc olunmağa başladı. Qəzetin ilk redaksiyası Elmlər Akademiyanın Fizika İnstitutunun 6-cı mərtəbəsində yerləşirdi.

Fəaliyyətə başladığı ilk gündən qəzet konkret ideologiyaya əsaslanırdı. Həmin vaxt sırf siyasi-ideoloji qəzet kimi fəaliyyətə başlamağın çətinlikləri isə daha çox idi. Həmin dövrdə hakimiyyətdə olan qaragüruh qüvvələrin siyasi sifarişi əsasında respublikanın bir sıra mətbu orqanlarında Heydər Əliyevə qarşı iftira və qarayaxma kampaniyası aparılırdı.

Qəzet həmin dövrdə mövcud olan hakimiyyətə qarşı müxalif mövqedə idi və haqlı olaraq bu mətbu orqanın qurucuları bütün Azərbaycan vətəndaşları kimi xalqımızın gələcək taleyini böyük tarixi şəxsiyyət Heydər Əliyevlə birgə görürdülər. O dövrdə ulu öndərə rəğbətin ifadə edilməsi olduqca təhlükəli idi. Həmin dövrdə xalqımız və dövlətçiliyimiz qarşısında öz tarixi məsuliyyətini dərk edən qəzetimizin qurucuları belə bir məsuliyyətli və dövlətçiliyimiz üçün həlledici mərhələdə Heydər Əliyev ideyalarını ictimai rəyə çatdırmaq missiyasını öz üzərinə götürdülər.

Fəaliyyətə başladığı vaxtdan həftədə 2 dəfə 8 səhifə həcmində və 5-10 min arası tirajla dərc olunan qəzet oxucuların rəğbətini qazanıb. 1992-ci ildən etibarən qəzetin tirajı 15 mindən yuxarı olub, 1993-cü ildə isə 25 minə çatıb. O dövrün ictimai-siyasi hadisələri fonunda qəzetə tələbat daha da artıb və tiraj sayı hətta 35 mini də keçib. Bu, kifayət qədər böyük rəqəmdir və eyni zamanda, xalqın marağını əks etdirirdi.

1992-ci ildən başlayaraq, "Səs" qəzeti hakim Yeni Azərbaycan Partiyasının təşkilatlanmasında baza rolunu oynayıb, partiya yarandıqdan sonra onun əsas mətbu ruporu kimi fəaliyyətini davam etdirib. Partiyanın bəyanatlarını, yığıncaqlarını və sair tədbirlərini öz səhifələrində geniş işıqlandırıb. 1994-cü ildən başlayaraq 16 səhifə həcmində çap olunmaqla yanaşı, qəzet 1998-ci ildən etibarən gündəlik işıq üzü görməyə başlayıb.

Qəzetin 1991-93-cü illər saylarında ulu öndər Heydər Əliyevin müsahibələrini və onun haqqında məqalələri, həmçinin ölkə parlamentindəki çıxışlarını oxucularına təqdim edirdi. Qəzet ulu öndərin xarici mətbuata verdiyi müsahibələri tərcümə edərək ölkə ictimaiyyətinə çatdırırdı.

Qəzet fəaliyyətə başladığı dövrdə dövlətçilik uğrunda çox böyük, hətta orada çalışan jurnalistlərin həyatına təhlükə yarada biləcək qədər işlər gördü. Xüsusilə, AXC-Müsavat hakimiyyəti illərində bu qəzetə qarşı davamlı basqılar, hücumlar baş qaldırır, burada çalışan qəzet heyətinə təhdidlər yağdırılırdı. Hətta bir neçə dəfə qəzetin redaksiyasına silahlı hücumlar, sui-qəsdlər təşkil olunmuş, jurnalistlərə xəsarətlər yetirilmişdi. Ancaq bütün bunlara baxmayaraq, nəşr öz fəaliyyətini qətiyyətlə davam etdirdi, heç bir təhdiddən, hücumlardan çəkinmədiyini sübuta yetirdi.

Təsadüfi deyildi ki, 1992-ci ilin oktyabrında ölkə ziyalıları xalqın iradəsini ifadə edərək ümummilli lider Heydər Əliyevə "Səs" qəzeti vasitəsilə müraciət etdilər. Ulu öndərimiz əslində, xalqın çağırışı olan bu müraciətə biganə qalmadı, öz cavab məktubunda Azərbaycan dövlətinin xilas yolunu, müstəqilliyin qorunub-saxlanılması strategiyasını açıqladı. Bu cavab da məhz "Səs" qəzetində dərc olundu.

Ulu öndər hakimiyyətə gəldikdən sonra "Səs" qəzeti həm ulu öndərin, həm də YAP-ın fəaliyyəti haqda cəmiyyəti məlumatlandırmaq missiyasını davam etdirdi. Məhz buna görə ulu öndər YAP-ın 10 illik yubileyindəki çıxışında "Səs"-i Azərbaycanın tarixinə düşmüş bir qəzet kimi xarakterizə etmiş və demişdi:

"Səs" qəzeti mənim üçün çox əziz qəzetdir. Mən bu qəzetin xidmətlərini xüsusi qiymətləndirirəm. O zaman ki, mən Naxçıvanda işləyirdim və Bakıda bəzi dairələrdə Naxçıvana qarşı ədalətsiz hərəkətlər olurdu. "Səs" qəzeti cəsarətlə çox ağıllı şəkildə məqalələr yazır, öz fikirlərini deyirdi. İctimaiyyətdə düzgün fikir formalaşmasına səy göstərirdi. Bu qəzetə qarşı təzyiqlər olurdu, lakin qəzet öz ideyaları uğrunda mübarizə aparmağı bacarırdı. "Səs" qəzetinin YAP-ın yaranmasında, cəmiyyətin maarifləndirilməsində məlumatlandırılmasında çox böyük rolu olub. "Səs" qəzeti tarixə düşmüş bir qəzetdir".



"Səs" bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi xəttini, fəaliyyətini çox fəal, qətiyyətli şəkildə müdafiə edir, YAP-ın bütün seçki və siyasi kampaniyalarında fəallıq göstərir. Bu da öz ədalətli mövqeyində dönməz olan "Səs"in ictimai-siyasi qəzet kimi nüfuzunu, populyarlığını daha da artırır və qəzetin artan oxucu auditoriyasını bir qədər də genişləndirir.

"Səs" qəzeti haqda danışarkən bu qəzetin yaranmasında və yaşamasında böyük zəhməti olan fədakar insanların adını çəkməmək doğru olmazdı. Qəzetimizin ilk baş redaktoru şair Eldar Baxış, baş red. müavini yazıçı Səfər Alışarlı olub.

1992-ci ilin martından baş redaktoru, Teyfur Çələbi, baş redaktor müavini Böyükkişi Heydərli olub. Həmin ilin iyulundan baş redaktoru Ağabəy Əsgərov, baş redaktor müavini Səyyad Aran olub.

2005-ci ildən indiyədək baş redaktoru Bəhruz Quliyev, baş redaktor müavini isə Fətulla Hüseynovdur.

1991-ci ildən etibarən qəzetin səhifələrində tanınmış şəxslərin məqalələri dərc olunurdu. Ziya Bünyadov, Fərəməz Maqsudov, Kərim Kərimov, Əli Əhmədov, Siyavuş Novruzov, Əli Nağıyev, Murtuz Ələsgərov, Bəxtiyar Vahabzadə, Məlik Dadaşov, Xəlil Rza, Səyyad Aran və başqaları bu qəzetdə məqalələrlə çıxış edirdilər.

Hazırda qəzet ölkədə və dünyada baş verən hadisələri, insanların fikirlərini, əldə olunan uğurları və problemləri də öz səhifələrində işıqlandırır. Eyni zamanda, qəzet dövlətimizin həyata keçirdiyi siyasətin ictimai rəyə təqdim olunması, obyektiv olaraq bu siyasətin xalqa çatdırılmasında fəal iştirak edir.

Hazırda qəzet gündəlik 3600 tirajla nəşr olunur. Qəzetin internet saytı (sesqazeti.az) fəaliyyət göstərir və xarici ölkələrdə yaşayan azərbaycanlıların da qəzeti oxuması imkanı var.

Dövrün tələblərinə uyğun olaraq, "Səs" qəzeti də daim yenilənir, müasir texnologiyalara yiyələnir. 2020-ci ildən etibarən, qəzet Azərbaycanın müasir mətbuatında bir yeniliyə imza atdı. Azərbaycanda ilk dəfə olaraq video-qəzet formatında nəşrə başladı və qəzet üzərindən kuarkod (QR) vasitəsi ilə müxtəlif xəbərləri video-görüntü vasitəsi ilə izləmək mümkündür.

2008-ci ildə qəzetin bazası əsasında yaradılmış "Səs" İnformasiya Agentliyi (sia.az) qısa zamanda öz maraqlı, obyektiv informasiyaları ilə təkcə ölkə oxucularının deyil, həm də xarici ölkələrdə yaşayan azərbaycanlıların mütamadi izlədikləri bir internet resursa çevrilib. 3 dildə xəbər hazırlayıb yayan agentlik ölkənin ən nüfuzlu xəbər mərkəzlərindən biridir.

2011-ci ildə qəzetin bazasında yaradılmış "Səs" internet televiziyası da (sestv.az) özünün böyük tamaşaçı auditoriyasına malikdir. SəsTv-nin evində gündəlik olaraq canlı yayımlanan verilişlər, süjetlər maraqla qarşılanır. Beləliklə, "Səs" qəzeti "Səs" Media Qrupuna çevrilib. Yaxın vaxtda qrupun radiosunun da yaradılacağı gözlənilir. "Səs" Media Qrupunun redaksiya heyəti 50 nəfərə yaxındır. Ölkənin bütün bölgələrində və bir sıra xarici ölkələrdə müxbir postları var.

Müstəqil Azərbaycanın ilk qəzetlərindən biri olan "Səs" qəzeti ölkə mətbuatında özünün xüsusi yeri ilə seçilir. Qəzet dövlət və xalq arasında münasibətlərin daha da yaxınlaşması, cəmiyyətin maarifləndirilməsi üçün mütamadi olaraq media layihələr həyata keçirir. Əlamətdar tarixi günlərdə qəzetin xüsusi buraxılışları, multimedia diskləri və digər əlavələri buraxılır.

Prezident İlham Əliyev ölkə mətbuatı tarixində ilk olaraq, məhz müstəqil media orqanına xüsusi təbrik ünvanlayıb, qəzetimizin qocaman işçilərini müxtəlif fəxri adlara layiq görüb və mükafatlandırıb.

Başda baş redaktor Bəhruz Quliyev olmaqla bütün redaksiya heyətimiz öz oxucularına göstərdikləri diqqətə görə təşəkkür edir, onlara ən xoş arzularımızı çatdırırıq. "Səs" qəzeti həmişə dövlətimi maraqları və xalqımızın mənafeləri uğrunda mübarizəsinə davam edəcək. "Səs" sizin səsinizdir. 32 yaşımız mübarək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ

SƏS

10 yanvar
2023-cü il



## “Fənərbağça” öz meydanında ”Qalatasaray”a uduzub

Futbol üzrə Türkiyə Super Liqasında İstanbul derbisi oynanılıb. XVIII tura təsadüf edən prinsipial oyunda ”Fənərbağça” öz meydanında ”Qalatasaray”ı qəbul edib.

”Ülkər” stadionunda oynanılan yeni ilin ilk derbi görüşündə qonaq komanda rəqibini 3:0 hesabı ilə məğlub edib.

Baş hakim Halil Umut Melerin idarə etdiyi qarşılaşmada ”sarı-qırmızılılar”ın heyətində Serjio Oliveira (32), Kərəm Aktürkoğlu (78) və Mauro Icardi (90) fərqləniblər. Bu oyundan sonra ”Qalatasaray” 39 xalla turnir cədvəlindəki liderliyini möhkəmləndirib. Əzəli rəqibindən dörd xal az toplayan ”Fənərbağça” ikinci pillədə qərarlaşıb. ”Başakşehir” komandası 31 xalla üçüncü sırada yer alıb.




# 2023- cü il hansı bürclər üçün uğurlu olacaq?

ARAŞDIRMA

**2023-cü ilin simvolu Su dovşanıdır. Astroloqlar bu il həyatın bütün sahələrindəki ziddiyyətlərin yumşalacağını və müsbət dəyişikliklər dinamikası baş verəcəyini deyirlər. Bu heyvanların ümid, məhsuldarlıq və firavanlıq vəd etdiyinə inanılır. Çin ənənəsində su uzun ömürlük və sülh deməkdir. Dovşan isə sayıqlıq, ağıl, ehtiyatlılıq, çevik və özünü müdafiə etmə rəmzidir. Beş eliment dovşan bürcündə aid edilir. Ağac, alov, torpaq, metal və su. Dovşan ilində doğulanlar Çin astrologiyasına görə mülayim sakit səbirli və çox məsuliyyətli insanlardır. Onlar tez-tez reallıqdan qaçmağa meyillidirlər, lakin həmişə ətrafdakılara sadiqdirlər. Su dovşanı ili 22 yanvardan başlayır və 9 fevral 2024-cü ildə başa çatacaq.**

2023-cü ildə bürcləri nələr gözləyir?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Astroloqlar qeyd edirlər ki, 2023-cü ildə ulduzlar tərəzilərə daha açıq və ünsiyyətcil olmağı, həmçinin konstruktiv dialoqlar aparmağı öyrənməyi tövsiyə edir. Müsbət münasibət Tərəzi üçün çoxlu qapılar açacaq, komandada əlaqələr qurmağa, tərəfdaşlarla əlaqələri gücləndirməyə və lazımi tanışlıqlar əldə etməyə imkan verəcək. 2023-cü il çox enerjili bir atmosferdə keçəcək, hadisələr kaleydoskopdakı şəkillər kimi bir-birini tez-tez dəyişəcək. Ona görə də bu bürcün nümayəndələri belə dinamik fəaliyyətlərə hazır olmalıdırlar. Tərəzi bürcləri maliyyə tərəfi faydalı əlaqələr qurmaq və prioritetləri düzgün təyin etmək bacarığından asıllı olacaq. Əmək fəaliyyətində uğurlar əhəmiyyətli pul gəliri gətirəcək, öz işinizi açmaq üçün uğurlu ildir. Yeni il Tərəzilər üçün sağlamlıq baxımından da kifayət qədər sabit olacaq.

Ulduzlar Dolçalara xəbərdarlıq edir - bu bürcün nümayəndələri üçün qlobal dəyişikliklər gətirəcək. 2023-cü il üçün hədəfləri düzgün və aydın şəkildə müəyyən etmək lazımdır. Planlaşdırılmış zirvələrə çatmaq üçün Dolça çox çalışmalı olacaq və bu iş bir şeylə məhdudlaşmamalı, özünü inkişaf etdirmə və özünü təhsili istisna etmədən bütün istiqamətlərdə aparılmalıdır. Dovşan ili fəaliyyət növünü



dəyişdirmək və həyatınızın keyfiyyətini yaxşılaşdırmaq üçün əla dövr olacaq.

Dolça bürcünün aktivlik və ünsiyyətcillik kimi ayrılmaz xarakter xüsusiyyətləri bu bürcün nümayəndələri üçün köməkçi olacaq. Qlobal dəyişikliklər Dolça bürcünə adi həyat tərzini dəyişməyə kömək edəcək və hətta onları öz prinsiplərini yenidən nəzərdən keçirməyə məcbur edəcək. Maliyyə vəziyyəti ilin ikinci yarısında sabitləşəcək. Onun şəxsi həyatında genişmiqyaslı dəyişikliklər gözlənilmir.

Dolça üçün 2023-cü il stresslə dolu olacaq, ona görə də sağlamlıq üçün əsas təhlükə əsəb gərginliyi olacaq. Onun öhdəsindən gəlmək üçün, təmiz havada gəzmək, idman və ya yoga ilə məşğul olmaq əhəmiyyətlidir.

2023-cü ildə Əkizlər bürcü ciddi uğursuzluqlardan və problemlərdən qaça biləcək. İl həyatın demək olar ki, bütün sahələrində çox əlverişli və çox uğurlu olacağını vəd edir. Əkizlər həyatdakı kiçik çətinlikləri sakit və soyuqqanlı şəkildə həll edəcəklər. Astroloqlar Əkizlər bürcünə xəbərdarlıq edir ki, mənfi duyğulardan, həddindən artıq şiddət və tələskənlikdən qaçsınlar. 2023-cü il bu bürcün nümayəndələrinə peşəkar sahədə uğur gətirəcək. Əkizlər bütün bacarıqlarını, istedadlarını və işə yaradıcı yanaşmalarını göstərə biləcəklər. Asan ünsiyyət iş komandasında həmfikir insanları tapmaq imkanı verəcək və rəhbərliklə yaxşı münasibətlər karyera nərdivanında yüksəlməyə çevriləcək. Bu dövrdə ulduzlar Əkizlərə öz bacarıqlarını artırmaq və yeni biliklər əldə etmək haqqında düşünməyi məsləhət görürlər.

2023-cü il Xərçənglər üçün ən hazırlıq dövrü başlayır. İl boyu uğur qazanacaqsınız. Heç bir qlobal problem və qorxu gözlənilmir. Ulduzlar maliyyə komponentinin yaxşılaşdırılmasından danışır, karyerada uğurlar və sevgidə irəliyə doğru irəliləyirlər. Dovşan ili aktiv iş dövrüdür, bu il Xərçənglər öz potensiallarını üzə çıxara bilər, yüksək potensial və biznesdə uğurla nəticə əldə edə bilər.

Xərçəng fəaliyyətinin onların maddi rifahına təsir etmək üçün yavaş olmayacaq. Bu bürcünün dəbdəbəli tətilləri və böyük alışlar əldə edə biləcək və investisiyalar da uğurlu olacaq.

Bu ildə Əqrəblər yalnız güclərinə, intuisiyalarına, soyuqqanlılığına və ani qərar qəbul etməkdən imtina etməlidirlər. Ulduzlar bu bürcün köməyi ilə saxlanılan yoldan azmamağı tövsiyə edir. Əmək fəaliyyəti məhsuldar, lakin son dərəcə narahat olacaq. Əqrəblərin başına xoşagəlməz anlar gələcək, bu zaman diqqəti cəmləmək və tələsik qərarlar verməməyə çalışmaq lazım gələcək. 2023-cü il yeni peşələrə yiyələnmək, təhsil almaq və bacarıqları öyrənmək üçün çox yaxşı ildir. Maddi baxımdan il çox ugurlu olacaq.

Araşdırmalar göstərir ki, Dovşan ili daha yumşaq, mehriban və sakit münasibətlərin yaranmasına və inkişafına töhfə verən Veneranın - planetin himayəsi altında olacaq.

Metafizik, Astroloq, Bioenerji uzmanı Məryəm Teymur: “Hər ilin rəqəmi bir işarənin göstəricisidir. 2023-cü ildə rəqəmlərin birləşməsində yeddi təşkil edir. Yeddi rəqəmi mənəvi yüksəlişin simvoludur . Onun talismanı yeddi ailə dəyərinin möhkəmlənməsini simvollaşdırır. Bu il istedadlı və parlaq uşaqların dünyaya gələcəyi proqnozlaşdırılır. Yeddi uğurlu rəqəm olduğu üçün fəaliyyətdə sərbəstlik verir. İstənilən biznes üçün əlverişli başlanğıcdır. Planlaşdırmadan qorxmayın ən cəsarətli ideyanın həyata keçirilməsi üçün ən uğurlu bir il gəlir. Yeddi özünə və cəmiyyətə xidmət və onun enerji ilə doldurmaqdır.

Qərb astrologiya elminə görə 2023 -cü il də 2020-ci ilə başlayan dəyişmə tendensiyasını hələ də davam edəcəkdir. Yeni ilə birdən iki planetlə giririk. Bunlar Merkuri və Marsdır. Köhnə işlərinizi hələ də həll etməmisinizsə təcüblənməyin. Planetlərin dünyaya doğru hərəkəti həmişə onların hər birinin məsuliyyət daşıdığı ərəfələrdə narahatlıqlara səbəb olur. Ona görə də mümkün qərar qəbul etməzdən öncə mümkün qədər nəticələri və reaksiyaları bilmək üçün planetlərin hərəkətlərin öyrənmək məsləhətlidir. Yadda saxlamaq lazımdır ki bu ildə insanı təkcə uğursuzluqlar gözləmir. Saturun yanvarın sonunda oğlaq bürcündən dolça bürcünə keçid edir. Bir tərəfdən hər şey daha asand olacaq, dolça havadar gənc yüngül və fantaziya əlamətidir.

2023-cü ildə iki günəş tutulması və iki ay tutulması baş verəcək. Gün tutulması 20 apreldə qoç bürcündə başlayır və 5 may əqrəb bürcündə bitir. İkinci kalidor günəş tutulması 15 oktyabr tərəzi bürcündə və ay tutulması isə 23 oktyabr buğa bürcünə təsadüf olunur”.

2023-cü ildə astroloji praqnozda dünyanı hansı qlobal dəyişiklər gözləyir?

”2022-ci ilin oktyabrından 2023-cü ilin aprelinə qədər Yupiter balıq bürcündən ayrılır və dövrlərin dəyişməsini ifadə edən qoç bürcünə daxil olur. Bir sıra karmik dəyişiklərin sonra çatacağını göstərir. Köhnə əbədi olaraq keçmişdə olacaq yerini yeniliyə verəcək. Qoç qızğın və döyüşkən bürcdür.

Qeyri-sabitlik və xaosla yanaşı bir çox insanlar gələcəkdə nə edəcəkləri barədə inam və fikir sahibi olacaqlar. Saturun dolça bürcündə hərəkət edir, bu, bir tərəfdən vəziyyəti sərtləşdirəcək, digər tərəfdən isə yeni ideyaların əlamətləri üçün imkanlar yaradacaq”.

***Havar Şəfiyeva***

# Məktəblər qarlı havaya görə fəaliyyətinə fasilə verir?



Bildiyimiz kimi, ölkədə qarlı hava şəraiti hökm sürür. Əgər bu hava şəraiti kəskin şəkildə davam edərsə, məktəblərdə dərslərə fasilə verilə bilər? Belə bir hal mümkündürmü? Ümumiyyətlə hava ilə bağlı məktəblərdə hər hansı güzəştlər edilib? Mövzu ilə vağlı SİA-ya təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi açıqlama verib.

Onun sözlərinə görə, təbii ki, əgər hava şəraiti yolların bağlanması ilə nəticələnərsə, konkret olaraq kəskin hava şəraiti, yaxud şaxtanın olması nəqliyyatın hərəkətini iflic vəziyyətə salarsa, həmçinin məktəblərdə isitmə sisteminə təsir göstərərsə, şagirdlərin davamiyyəti aşağı düşərsə bu zaman məktəblərin bir neçə günlük bağlanmasına Elm və Təhsil Nazirliyi tərəfindən qərar verilə bilər: ”Amma hal-hazırdakı vəziyyətdə belə hal yaşanmadığı üçün dərslər davam edir. Vəziyyət kəskinləşərsə, dərslərin bağlanması gözlənilənd̈ir. Buna Təhsil haqqında qanunvericildə də icazə verilir”.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**

**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**

**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**